# Azərbaycanın növbəti uğuru - Fərrux Zəfəri!




**31 Mart soyqırımı: "İnsanların baş nahiyəsindən balta ilə vurublar"**

12

**SƏS**

№ 053 (6494) **30 mart** 2022-ci il. **Qiyməti 60 qəpik**



*Prezident İlham Əliyev: "Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur"*

8



# Ermənistanda amerikan biomüharibə laboratoriyaları: region üçün qorxunc təhlükə

## İstanbul görüşü - Rusiya və Ukraynadan Türkiyə xarici diplomatiyasına jest




*Rusiya ordusu Ukrayna cəbhəsinin Kiyev cə Çerniqov istiqamətindəki hərbi fəallığını kardinal şəkildə məhdudlaşdıracaq. SİA Meduza Informasiya resursuna istinadən xəbər verir ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyi İstanbulda baş tutan Rusiya-Ukrayna danışıqlarının başa çatmasından sonra bu...*

13

## DİQQƏT: Tibbi maska ləğv edilir?



## Rusiya: "Mixail Delyaginin Azərbaycanla bağlı açıqlamaları tamamilə qəbuledilməz və məsuliyyətsizdir"

2



*Deputat Mixail Delyaginin Azərbaycan və Qarabağla bağlı açıqlamaları Rusiyanın mövqeyinə uyğun deyil. Bunu Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə Dövlət Dumasının İqtisadi siyasət komitəsinin sədr müavini Mixail Delyaginin Azərbaycan və Qarabağla bağlı açıqlamalarını şərh edərkən söyləyib.*

## Ermənistan tələdə və təhlükəsizliyi təhdid altında

Rusiyanın Ukraynada uğursuzluqlarla qarşılaşması, müvəffəqiyyət qazana bilməməsi bu ölkənin müttəfiqlərinin hər istiqamətdə tamamilə məğlub olması anlamına gəlir...



15

## "Gender siyasətinin təşviqi-milli prioritetlər"

5



*Martın 29-da Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının təşkilatçılığı ilə partiyanın Sumqayıt şəhər təşkilatında "Gender siyasətinin təşviqi-milli prioritetlər" mövzusunda tədbir keçirilib.*



## Azərbaycanda pensiyaçıların sayı 1 milyonu ötüb

16

*2021-ci ildə ölkə üzrə əmək pensiyaçılarının ümumi sayı 1 milyon 197 min nəfər təşkil edib, onlardan 707,2 min nəfəri və ya 59,1 faizi yaşa...*



## "Barselona": Messi gündəmimizdə deyil...

16

"Barselona"nın prezidenti Joan Laporta PSJ-nin hücumçusu Lionel Messinin Kataloniya klubuna mümkün qayıdışı ilə bağlı danışıb.

# Azərbaycan dövlətinin siyasi kursunda humanizm başlıca prinsiplərdən biridir!

*Prezident İlham Əliyev Bakıda yeni inşa edilmiş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış olub*









***Prezident İlham Əliyev cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış olub.***

Belə ki, ötən əsrin 30-cu illərində inşa olunmuş və dövrün tələblərinə cavab verməyən penitensiar müəssisələrin əvəzinə inşa edilmiş yeni müəssisələrdə nümunəvi şərait yaradılıb, istirahət, psixoloq, ibadət otaqları və digər otaqlar ayrılıb, məhbusların faydalı işlə məşğul olmaları üçün istehsalat sahələri təşkil edilib.

Hər iki müəssisədə məhkumların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman sahələri, təhsil və peşə ixtisaslarına yiyələnmələri üçün lazımi infrastruktur yaradılıb. Burada zəruri ədəbiyyatla təchiz olunmuş kitabxana, oxu zalı və kompüter otağı vardır.

Dövlətimizin başçısının istehsalat sahələrinin genişləndirilməsi, bu fəaliyyətə sahibkarların, iş adamlarının cəlb edilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq yeni müəssisələrdə yaradılmış istehsal bölməsində məhkumlar toxuculuq, xalçaçılıq, biçmə, tikiş və şirniyyat sexlərində çalışacaqlar.

Müəssisənin ikimərtəbəli tibbsanitariya hissəsində həkim otaqları, müasir avadanlıqla təchiz edilmiş müayinə-diaqnostika və stomatologiya kabinetləri, laboratoriya, aptek, pediatr otağı və digər yardımçı otaqlar yerləşir.

Yeni penitensiar müəssisədə məhkumlarla görüşlər üçün də bina inşa olunub. Burada məhkumların ailə üzvləri ilə qısamüddətli və 3 günlük uzunmüddətli görüşü üçün hər cür məişət şəraiti, mətbəxi, gəzinti yerləri olan ayrıca otaqlar vardır. Müəssisələrin ərazisində inşa olunmuş ikimərtəbəli məktəb binasında sinif otaqları ilə yanaşı, əmək, kompüter və digər otaqlar, idman zalları yerləşir. Burada yaradılmış şərait məhkumların, xüsusilə yetkinlik yaşına çatmayanların təhsil almalarına və peşə ixtisaslarına yiyələnmələrinə imkan verir.

Azərbaycan dövlətinin siyasi kursunda humanizm başlıca prinsiplərdən biridir. Prezident İlham Əliyevin bu vaxtadək imzaladığı 35 əfv aktı ilə 6 minədək məhkum bağışlanıb, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 amnistiya aktı isə 40 mindən çox insanı əhatə edib.

Eyni zamanda, ölkədə ədliyyə sisteminin müasirləşdirilməsi ilə bağlı aparılan islahatlar çərçivəsində penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir, cəza siyasəti humanistləşdirilir, məhkumların hüquqlarının qorunması, saxlanma şəraitinin, tibbi və digər təminatlarının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür.

## Baş nazir Əli Əsədovun sədrliyi ilə müşavirə keçirilib

*Martın 29-da Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinə və əhalinin əsas ərzaq məhsulları ilə təchizatının yaxşılaşdırılmasına həsr olunan müşavirə keçirilib*

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən müşavirədə "Minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılmasının tənzimlənməsinə dair tədbirlər haqqında" Nazirlər Kabinetinin 18 mart tarixli Qərarından irəli gələn tapşırıqlar, əsas ərzaq məhsulları ilə daxili bazarın təchizatının yaxşılaşdırılması və özünütəminat səviyyəsinin qorunması, yerli istehsalçıların stimullaşdırılması, əsas ticarət tərəfdaşları ilə idxal-ixrac əməliyyatları, daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi və digər məsələlər geniş müzakirə olunub.



Müşavirədə İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, Qida Təhlükəsizliyi və Dövlət Ehtiyatları Agentliyinin məruzələri dinlənilib və müvafiq tapşırıqlar verilib.

## Rusiya: "Mixail Delyaginin Azərbaycanla bağlı açıqlamaları tamamilə qəbuledilməz və məsuliyyətsizdir"



Deputat Mixail Delyaginin Azərbaycan və Qarabağla bağlı açıqlamaları Rusiyanın mövqeyinə uyğun deyil. Bunu Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə Dövlət Dumasının İqtisadi siyasət komitəsinin sədr müavini Mixail Delyaginin Azərbaycan və Qarabağla bağlı açıqlamalarını şərh edərkən söyləyib.

"Biz hər hansı bu cür açıqlamaları tamamilə qəbuledilməz və məsuliyyətsiz hesab edirik. Bu cür açıqlamalar heç bir halda ölkəmizin, Rusiya rəhbərliyinin Bakı ilə müttəfiqlik, qarşılıqlı fəaliyyət və strateji tərəfdaşlığın qurulmasına yönəldilən rəsmi mövqeyini əks etdirmir. Əminik ki, ölkəmizin Dövlət Dumasının rəhbərliyi tərəfindən bu cür təxribat xarakterli açıqlamalara müvafiq qiymət veriləcək", - deyə M.Zaxarova bildirib.

# Azərbaycanın növbəti uğuru - Fərrux Zəfəri!

*Prezident İlham Əliyev: "Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur"*

***Dünya praktikası diplomatiyanı dövlət başçılarının, hökumətlərin və xarici əlaqələr üzrə xüsusi orqanların prinsipial fəaliyyəti, xarici siyasətin məqsəd və vəzifələrinin həyata keçirilməsi, dövlətin hüquq və maraqlarının xaricdə müdafiə olunması kimi səciyyələndirir. Napoleon hesab edirdi ki, diplomatiya təmtəraqlı libas geyinmiş siyasətdir. İngilis diplomatı E.Satou diplomatiyanı "müstəqil dövlətlər arasında rəsmi əlaqələrin həyata keçirilməsində ədəb və ağılın tətbiq edilməsi" kimi təqdim edir.***

Diplomatiyanın əsas predmeti, subyekti və obyekti dünyanın siyasi xəritəsində öz yerini tutmuş dövlətlərdir. Fərəhli haldır ki, bu gün Azərbaycan belə bir dövlət kimi tanınır. Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri də məhz 44 günlük zəfər yürüşü nəticəsində doğma Qarabağımızın 30 illik işğalına son qoyulması oldu. Xalqımızın ən ağrılı problemi olan Qarabağ münaqişəsi müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Milli Ordumuzun gücü ilə başa çatdı. Şuşanın, Laçının, Kəlbəcərin ən uca zirvələrinə Azərbaycan bayrağı sancıldı. Beləcə, Prezident İlham Əliyevin özünün də dediyi kimi, o, ata vəsiyyətini, ulu öndər Heydər Əliyevin arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

### FƏRRUX ZƏFƏRİ AZƏRBAYCAN PREZİDENTİNİN NƏYİ, NƏ VAXT, NECƏ ETMƏK LAZIM OLDUĞUNUN GÖSTƏRİCİSİDİR

Bu günlərdə Rusiya Federasiyası Müdafiə Nazirliyinin 2022-ci il 27 mart tarixli açıqlamasında əks olunan məqamlarla bağlı Azərbaycan Respublikası Müdafiə Nazirliyi təəssüflə bildirir ki, deyilənlər həqiqətə uyğun deyildir: "Azərbaycan Ordusunun ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqelərində heç bir dəyişiklik baş verməyib. Azərbaycan Ordusunun bölmələrinin həmin mövqelərdən geri çəkilməsi haqqında məlumat həqiqəti əks etdirmir. Ordumuz əməliyyat şəraitinə tam nəzarət edir".

Həmçinin o da bildirilib ki, Rusiya Federasiyası Müdafiə Nazirliyinin açıqlamasında atəşkəsin guya Azərbaycan tərəfindən pozulması barədə verilmiş məlumat da həqiqətə uyğun deyil və Azərbaycan hərbçiləri arasında yaralanma halı qeydə alınmayıb: "Bir daha xatırlatmaq istərdik ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur. Rusiya Müdafiə Nazirliyinin 26 və 27 mart tarixli açıqlamalarında "Dağlıq Qarabağ" ifadəsinin işlədilməsi Azərbaycan Respublikasının beynəlxalq birlik, o cümlədən Rusiya Federasiyası tərəfindən tanınmış və qəbul edilmiş ərazi bütövlüyünə qarşı hörmətsizlikdir. Rusiya Federasiyasının Müdafiə Nazirliyinə xatırlatmaq istərdik ki, 2022-ci il 22 fevral tarixində iki ölkə prezidentləri tərəfindən imzalanmış Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin birinci bəndində qeyd olunur ki, "Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə



sadiqlik əsasında qururlar".

Həmçinin, o da vurğulanır ki, bəyannamənin 18-ci bəndinə əsasən, Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə, qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirirlər: "Rusiya Federasiyası Müdafiə Nazirliyi bu açıqlaması ilə eyni zamanda Rusiya Federasiyasının Prezidenti, Rusiya Silahlı Qüvvələrinin Ali baş komandanı Vladimir Vladimiroviç Putin tərəfindən də imzalanmış sözügedən bəyannaməyə də hörmətsizlik nümayiş etdirir. Müdafiə Nazirliyi bir daha bildirir ki, Azərbaycanın Xocalı rayonunda "Furux" adlı kənd yoxdur. Qeyd edilən kəndin adı FƏRRUXDUR. Ümid edirik ki, növbəti açıqlamalarda kəndin adı düzgün formada göstəriləcəkdir".

### "AZƏRBAYCAN ƏRAZİSİNDƏ "DAĞLIQ QARABAĞ" ADLI İNZİBATİ ƏRAZİ VAHİDİ YOXDUR VƏ OLMAYACAQ"

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında, görüşlərində biildirib ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur və olmayacaq. Prezident İlham Əliyev: "Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur". Bəli, Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən ümumi müzakirələr zamanı videoformatda çıxışında bildirib ki, Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Və bu günə kimi, yəni Azərbaycan Prezidenti İlham Əliyev 18 illik prezidentliyi dövründə nəyi necə və



nə vaxt etməyi bilir... Məhz dövlət başçımızın diplomatik siyasəti nəticəsində Azərbaycan torpaqlarının separatçı ünsürlərdən təmizlənməkdədir. Bu gün artıq üçrəngli bayrağımız Fərrux kəndində dalğalanır. Artıq Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz zəfər tarixini yazmaqda davam edir. Fərrux Zəfəri bir daha göstərdi ki, Azərbaycan Prezidenti nəyi, nə vaxt, necə etmək lazım olduğunu dəqiq bilir, məsələlər səbr və təmkinlə həllini tapır. Bu gün Fərrux kəndi ətrafında səngər qazan silahlılar kimi digərləri də bilməlidir ki, Güclü Azərbaycan Ordusu vəziyyəti nəzarətdə saxlayır, istənilən qanunsuz hərəkətin qarşısını almağa qadirdir və həmişə də o işğalçı ünsürlər qazdıqları "quyuya" özləri düşürlər.

Onu da vurğulamaq lazımdır ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın 4-cü bəndi qanunsuz erməni birləşmələrinin ərazilərimizdən çıxarılmasını tələb edir. Rusiya sülhməramlılarının bölgədə yerləşməsi ilə bu qanunsuz birləşmələrin neytrallaşdırılması paralel baş verməli idi. Təəssüf ki, erməni separatçılarının qanunsuz əməllərinə göz yuman sülhməramlı qüvvələr Fərrux kəndi yaxınlığında mövqe bərkitmə əməllərinə, sadəcə, müşahidəçi qismində qalırdılar. Bu cür addımlar Azərbaycan və Rusiya arasında bu il 22 fevralda imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannaməyə də zidd hərəkətlərdir. Heç kimin şübhəsi olmasın ki, bütün qanunsuz erməni silahlı birləşmələri Azərbaycan ərazilərindən çıxarılacaq. Cənab Prezident İlham Əliyev nəyi, nə vaxt və necə etməyi çox yaxşı bilir. Fərrux kəndi artıq bizdədir. Bu, o deməkdir ki, digər ərazilərdən də qanunsuz erməni silahlı birləşmələri çıxarılacaq.

Ermənilər bunu nə qədər tez anlasalar, onlar üçün o qədər yaxşı olar və onu da bilməlidirlər ki, qüdrətli Azərbaycan ordusu qarşısında duran hər bir tapşırığı yerinə yetirməyə hazırdır. Əgər qanunsuz erməni silahlı birləşmələri 10 noyabr bəyanatına uyğun olaraq Azərbaycan ərazilərindən çıxarılmayacaqlarsa, bu işi Azərbaycan ordusu görəcək.

***RƏFİQƏ HÜSEYNOVA***



# Azərbaycan güləşi tarixində rekord

## *İlham Əliyev: "Artan rəqabət şəraitində Avropada birinci olmaq, əlbəttə, böyük nailiyyətdir"*

***Dünyada idman ölkəsi kimi tanınan Azərbaycan beynəlxalq idman arenasında artıq özünə layiqli yer tutub. İstər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə bu imicə sahib olub. Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq ölkənin bütün sahələrində, eləcə də idman sahəsində böyük nailiyyətlər əldə olunub.***



Dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda yüzlərlə beynəlxalq yarışlar keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb.




### "AZƏRBAYCAN İDMAN DÖVLƏTİDİR VƏ HƏM BÖYÜKLƏR, HƏM GƏNCLƏR ARASINDA KEÇİRİLMİŞ BEYNƏLXALQ YARIŞLARDA BİZİM İDMANÇILARIMIZ ÖZ GÜCÜNÜ, DÖVLƏTİMİZİN QÜDRƏTİNİ NÜMAYİŞ ETDİRİRLƏR"

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti Cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün güləş özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə müstəqillik əldə etdikdən sonra bütün olimpiya oyunlarında bu idman növü üzrə medallar qazanılıb. Bu, bir daha sübut edir ki, milli idman növü güləş Azərbaycan idmanının aparıcı sahəsidir. Bu günlərdə Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimizin ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atıblar. Belə ki, bu yarışda idmançılarımız 16 medal qazanıb ki, onlardan 7-si qızıl medaldır. Bu da Azərbaycan güləşi tarixində rekord nəticədir. Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən çıxışında bildirdiyi kimi, "Bu, bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir, Azərbaycan idman dövlətidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər".

### "HƏM İDMANÇILAR, HƏM İDMAN MÜTƏXƏSSİSLƏRİ, BÜTÜN AZƏRBAYCAN VƏTƏNDAŞLARI BU QƏLƏBƏNİ BÖYÜK QÜRUR HİSSİ İLƏ QARŞILAYIBLAR"

Vurğulamaq yerinə düşər ki, ölkəmizdə idmançılar hərtərəfli qay+ğı ilə əhatə olunur ki, bu da beynəlxalq yarışlarda daha böyük uğurlar əldə etməyə imkan yaradır. Mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Bu da gəncləri idmana olan marağını daha da artırır və mövcud şərait onları daha da ruhlandırır. "Mən bilirəm ki, idmanın bütün növlərində, o cümlədən güləş idman növündə ildən-ilə rəqabət artır, müxtəlif ölkələrdə güclü idmançılar üzə çıxır və artan rəqabət şəraitində Avropada birinci olmaq, əlbəttə, böyük nailiyyətdir", - deyən Prezident sözü gedən çempionatda Dövlət Himnimiz yeddi dəfə səsləndirildiyini diqqətə çəkib: "Əlbəttə ki, həm idmançılar, həm idman mütəxəssisləri, bütün Azərbaycan vətəndaşları bu qələbəni böyük qürur hissi ilə qarşılayıblar."

### "BUGÜNKÜ QƏLƏBƏNİ MƏN GÖRÜLƏN BU İŞLƏRİN İLK TƏZAHÜRLƏRİNDƏN BİRİ KİMİ QƏBUL EDİRƏM"

Cənab Prezident çıxışında "Mən Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçiləndən qarşıya məhz bu vəzifəni qoydum ki, biz idmançılara şərait yaratmalıyıq, onlardan isə nəticə gözləməliyik. Bax, bu iki əsas amil bizim böyük uğurlarımızın əsasını təşkil edirdi. Ona görə əminəm ki, Güləş Federasiyası Gənclər və İdman Nazirliyi ilə, məşqçilərlə birlikdə düzgün addımların atılmasına nail olacaq və bugünkü qələbəni mən görülən bu işlərin ilk təzahürlərindən biri kimi qəbul edirəm."

Dünyanın ən mötəbər idman tədbirlərindən olan Olimpiya Oyunlarında Azərbaycan idmançılarının möhtəşəm qələbələr qazanması xüsusi qeyd edilməlidir. Olimpiya Oyunlarında Azərbaycan komandasının əldə etdiyi nəticələrə nəzər salsaq, çox böyük uğurların əldə edildiyinin şahidi olarıq. "Atlanta-1996"da 1, "Sidney-2000"də 3, "Afina-2004"də 5, "Pekin-2008"də 7, "London-2012"də 10 medal qazanan Azərbaycan komandası "Rio-2016" Yay Olimpiya Oyunlarında tarixi qələbəyə imza ataraq 18 medal əldə etdi. İdmançılarımızın olimpiadalarda, beynəlxalq səviyyəli mötəbər yarışlarda qazandıqları uğurlar sayəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Son illərin idman nailiyyətlərinə nəzər yetirdikdə bir daha şahidi oluruq ki, Azərbaycan bütün beynəlxalq yarışlarda ən yüksək pillələrdə özünü təsdiq edib. Başqa sözlə, idmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiadalarda çıxışları da getdikcə daha uğurlu olur. Birinci Avropa Oyunlarında Azərbaycan idmançıları 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanmağa müvəffəq oldular. IV İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. İdman sahəsində gerçəkləşdirilən dövlət siyasətinin nəticəsi olaraq, idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir. Minskdə keçirilən İkinci Avropa Oyunlarında Azərbaycan millisinin 10-cu yerdə qərarlaşması idmanımızın növbəti uğuru oldu. 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız Oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurdu. Bütün bunlar Azərbaycanda idmana dövlət qayğısının müsbət nəticələrini və idmanın inkişaf səviyyəsini əyani göstərir. İlham Əliyev "Ölkəmizdə keçirilmiş və bundan sonra keçiriləcək idman yarışları da müntəzəm xarakter almalıdır. Çünki ölkəmizin həm imkanları, həm Azərbaycanda qonaqpərvərlik, idman infrastrukturunun mövcudluğu sayəsində biz bütün istənilən idman yarışını keçirə bilərik, - deyərək bildirib ki, Avropa Oyunlarında 5 mindən çox idmançı iştirak edirdi və onların bir çoxu qeyd edirdi ki, bu Oyunlar Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilir: "Yəni, bütün bu şəraiti biz yaratmışıq ki, həm idmançılar dövlətimizin şöhrətini həmişə yüksəkliklərdə saxlasınlar, həm də idman kütləvi xarakter alsın. Gənclər və idman naziri qarşısında, yeni rəhbərlik qarşısında qoyduğum vəzifələrdən biri də məhz budur - idmanın kütləviliyini təmin etmək və bütün bölgələrdə mövcud infrastrukturdan istifadə etmək. Çünki bizdə hər bir bölgədə müasir olimpiya idman kompleksləri vardır, 50-yə yaxın belə bir kompleks artıq inşa edilib və onlardan səmərəli şəkildə istifadə etməliyik".

Azərbaycan idman ölkəsi statusunu qoruyub saxlayır. Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Gender siyasətinin təşviqi-milli prioritetlər"

## *YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə bu mövzuda tədbir keçirilib*





***Martın 29-da Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının təşkilatçılığı ilə partiyanın Sumqayıt şəhər təşkilatında "Gender siyasətinin təşviqi-milli prioritetlər" mövzusunda tədbir keçirilib.***







Tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov mövzunun cəmiyyətimiz üçün aktual olduğunu bildirib.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdir müavini Zəkiyyə Musayeva deyib ki, Azərbaycanda gender bərabərliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Onun sözlərinə görə, ölkəmizdə bu sahədə mühüm tədbirlər həyata keçirilməkdədir.

Sonra Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, Azərbaycanda dövlət qadın siyasətinin həyata keçirilməsi və gender bərabərliyinin təmin olunması istiqamətində mühüm nailiyyətlər əldə edilib: "Ümummilli lider Heydər Əliyevin "Azərbaycanda qadınların rolunun artırılması", "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" imzaladığı sərəncamlar qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı. 2006-cı ildə Prezident İlham Əliyev "Gender - kişi və qadınların bərabərliyi təminatları haqqında" qanunu imzalayıb. Qanuna əsasən Azərbaycan qadınları çox geniş hüquqi təminatlar əldə etdilər. Bu, kişi və qadınların dövlətin idarə olunmasında və qərar qəbul edilməsində bərabər təmsilçiliyinə, ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verir.

Ardı Səh. 6



# "Gender siyasətinin təşviqi-milli prioritetlər"

*YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə bu mövzuda tədbir keçirilib*


















Əvvəli-Səh-5

2010-cu ildə isə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun qəbul edilib. Xüsusilə qeyd etmək lazımdır ki, bu qanunun qəbul olunmasında respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın danılmaz rolu vardır".

H.Hüseynova diqqətə çatdırıb ki, gender bərabərliyi "Dayanıqlı İnkişaf - 2030" Gündəliyində müəyyən edilmiş inkişaf məqsədlərinin tərkib elementidir: "Hazırda qadınların bütövlükdə dayanıqlı inkişafa verəcəkləri töhfə inklüzivlik üçün təşəbbüslərin artırılması və digər məsələlərdir. Davamlı gələcək insan kapitalının inkişafından və onların cinsi, dini, siyasi mənsubiyyətindən, gəlir səviyyəsindən və bərabər imkanlara məhdudiyyətlərdən asılı olmayaraq hər kəs üçün əlçatan olmasından asılıdır".

Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdiri Rufiz Qonaqov ölkəmizdə qadınların cəmiyyət həyatında, ictimai-siyasi proseslərdə fəal iştirak etdiyini diqqətə çatdırıb. O qeyd edib ki, Prezidentimiz cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətində qadınlar da aktiv rol oynayırlar. R.Qonaqov qadınların Yeni Azərbaycan Partiyasında da təmsilçiliyinin yüksək olduğunu vurğulayıb. Bütövlükdə isə dövlət qurumlarında, parlamentdə və bələdiyyələrdə də gender bərabərliyi qənaətbəxş səviyyədədir.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, professor Rəna Mirzəzadə isə bildirib ki, gender bərabərliyi qadın və kişilərin cəmiyyətdəki sosial rolunun ifadəsidir. Qadınlar kişilərlə bərabər ölkənin ictimai həyatında, iqtisadiyyat, mədəniyyət, elm, incəsənət və digər sahələrdə də uğurla çalışırlar. Onun sözlərinə görə, gender bərabərliyinin təşviqi daimi məsələdir və onun davamlı aparılması vacibdir.

Çıxış edən YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, Azərbaycanda uğurlu dövlət gender siyasəti həyata keçirilir. Azərbaycanda gender məsələlərinin xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman diqqət mərkəzində olduğunu xatırladan S.Qəhrəmanova vurğulayıb ki, ulu öndər Heydər Əliyevin hakimiyyətinin bütün dövrlərində qadınlara göstərilən diqqət və qayğının artdığının şahidi olmuşuq. Onun sözlərinə görə, Ulu Öndərimizin müəyyənləşdirdiyi bu siyasət Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

S.Qəhrəmanova çıxışında bu sahədə mövcud olan problemlərdən də danışıb və qeyd edib ki, YAP-ın yerli təşkilatları gender bərabərliyinin təşviqi, eləcə də bu istiqamətdə maarifləndirmə işinin aparılmasında daha fəal iştirak etməlidir.

Sonra tədbir diskussiya şəraitində davam edib, iştirakçıların sualları cavablandırılıb.

# Milli Olimpiya Komitəsinin 30 illiyi ilə bağlı - İDMANÇILARIN BAXIŞI



***Prezident İlham Əliyev Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin 30 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda məqsəd Milli Olimpiya Komitəsinin təsis olunmasının 30 illiyinin ölkənin ictimai həyatında əhəmiyyətini nəzərə alaraq, habelə Azərbaycanda Olimpiya Hərəkatının daha da genişləndirilməsini təmin etməkdir. Sərəncama əsasən, Nazirlər Kabineti Milli Olimpiya Komitəsi ilə birlikdə Milli Olimpiya Komitəsinin 30 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirməli və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir. Mövzu ilə əlaqədar olaraq SİA sorğu keçirdi.***



**Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov:** "Gənclərimizin sağlam həyat tərzinin təbliğində Milli Olimpiya Komitəsinin mühüm xidmətləri vardır. Ölkəmizin beynəlxalq aləmdə idman ölkəsi kimi tanınmasının təməlində dövlətimizin uğurlu idman siyasəti dayanır. Rəhbərlik etdiyi bütün sahələrdə uğurlara imza atan cənab İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi Azərbaycan idmanının həyatında da mühüm və əlamətdar hadisə kimi tarixə yazıldı. Bu tarixi seçim Ümummilli Lider Heydər Əliyevin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının daha sürətlə gerçəkləşməsini təmin etdi, idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə reallığa çevrilməsinə böyük imkanlar açdı. Cənab İlham Əliyevin idman və bədən tərbiyəsinin tərəqqisi, Azərbaycanın dünya idman ailəsinin əvəzolunmaz üzvünə çevrilməsi üçün atdığı addımlar ölkənin bütün idman ictimaiyyəti tərəfindən razılıqla qarşılandı. Respublikamızın Prezidenti seçildikdən sonra isə ölkədə idmanın inkişafı daha da sürətləndi. Uğurlu idman siyasətinin nəticəsi olaraq, Azərbaycan dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Dövlət başçısı İlham Əliyevin müvafiq Sərəncamı 2012-ci ilin "İdman ili" elan edilməsi idman sahəsinin inkişafına diqqət və qayğının bariz nümunəsi idi. Müstəqilliyimizi əldə etdiyimiz vaxtdan bu günə qədər Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda iştirakı və minlərlə medala layiq görülməsi bunun əyani sübutudur. İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, tikilmiş müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilmişdir. Bakı şəhərində bədii gimnastika, güləş və boks üzrə dünya çempionatlarının, habelə futbol üzrə qadınlar arasında dünya çempionatının keçirilməsi bunu bir daha təsdiq edir. Ən əsası 2015-ci ilin dünyanın idman tarixində yeni bir səhifə açması - ölkəmizin birinci Avropa Oyunlarına ev sahibliyi etməsi uğurlarımızın zirvə nöqtəsi kimi dəyərləndirildi. 2017-ci ildə isə Bakı müsəlman dünyasını bir araya gətirən İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Prezident İlham Əliyevin olimpiya oyunları və Bakıda keçirilən beynəlxalq turnirlər zamanı idmançılarımızın çıxışlarını birbaşa zaldan izləməsi isə idmançılarımıza göstərilən ən böyük mənəvi dəstəkdir. Sevindirici haldır ki, ölkə Prezidenti, idman aləminin qayğıkeşi, idmançıların dostu Cənab İlham Əliyevin bu gün imzaladığı Sərəncam ilə Milli Olimpiya Komitəsinin yaranmasının 30 illiyi dövlət səviyyəsində qeyd ediləcəkdir. Bu əlamətdar hadisə yetişməkdə olan gənc nəslimizi idmanın müxtəlif növlərinə cəlb edərək, idmanımızı daha da kütləviləşdirəcəkdir".



**Paraolimpiya çempionu İlham Zəkiyev:** "Cənab Prezident İlham Əliyev 1997-ci ildən Milli Olimpiya Komitəsinin sədri seçildiyi gündən Azərbaycan idmanındakı inkişaf göz önündədir. Artıq Azərbaycan bütün dünyada idman ölkəsi kimi tanınır. Həmçinin ölkəmizdə böyük idman yarışları keçirilir. Bunların hər biri cənab Prezidentin idmana olan diqqətinin və idmançılarımızın səyi nəticəsində baş verir. Azərbaycanın hər bir rayonunda beynəlxalq standartlara uyğun Olimpiya kompleksləri yaradılıb. Bütün gənclərimizə pis vərdişdən uzaq olub, sağlam bədənə sahib olmaq üçün idmanla məşğul olmalarını tövsiyə edirəm".

**Yunan-roma güləşi üzrə idmançı Nihad Məmmədli:** "Azərbaycan Olimpiya hərəkatında və idmanda böyük uğurlar qazanmışdır. Prezidentimiz İlham Əliyev Azərbaycan idmanına böyük diqqət və qayğı ilə yanaşır. 1997-ci ildə İlham Əliyevin Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi idmanın inkişafında mühüm bir mərhələnin başlanğıcı sayıla bilər. Onun Azərbaycanda idmana və bədən tərbiyəsinə olan qayğısı danılmazdır. Respublikadakı idman qurğularının sayı artaraq, ölkədə 40 Olimpiya İdman Kompleksi, üzgüçülük hovuzları, 5 stadion, 10-dan çox şahmat məktəbi tikilib və istifadəyə verilib. İdmançıların beynəlxalq yarışlarda qazandıqları medalların sayı dəfələrlə artıb. Azərbaycanda müxtəlif beynəlxalq yarışların keçirilməsi də idmana göstərilən qayğının parlaq sübutdur. Azərbaycanın 2015-ci ildə I Avropa oyunlarına, 2017-ci ildə isə IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etməsi xüsusilə qeyd olunmalıdır. Həm bu oyunların ən yüksək səviyyədə keçirilməsi, həm də Azərbaycan idmançılarının qazandıqları uğurlar ölkənin idman sahəsində ciddi nailiyyətlər əldə etdiyinin göstəricisidir. Eyni zamanda son Olimpiya oyunlarında qazanılan uğurlar, bu il mart ayında keçirilən güləş üzrə U23 Avropa çempionatında millimizin əldə etdiyi böyük uğur Prezidentin idmana göstərdiyi qayğının nəticəsidir".






**Olimpiya çempionu Fərid Mansurov:** "Cənab prezidentin Milli Olimpiya Komitəsinin 30 illiyi ilə bağlı imzaladığı sərəncam eyni zamanda idmana və Azərbaycan idmançılarına göstərilən diqqət və qayğının nümunəsidir. 30 illik Milli Olimpiya sahəsində çoxlu uğurlarımız, Olimpiya çempionlarımız və dünya çempionlarımız olub. Ölkəmizdə Milli Olimpiya Komitəsi tərəfindən tədbirlər keçirilibdir. Avropa, İslam oyunları və s. buna misal göstərmək olar".

***Banuçiçək Hüseynli***

## Azərbaycanda multikulturalizm sahəsində hansı işlər görülür?



Multikulturalizm adından da görünür ki, bir çox mədəniyyətin birlikdə, qaşılıqlı əlaqədə olmasıdır. Hazırda bu ifadəyə bir çox izahlar verilib". Bu sözləri SİA-ya sosioloq Əhməd Qəşəmoğlu bildirib.

Onun sözlərinə görə, multikulturalizm sözü Azərbaycanda formalaşdığı dövrdən bəri bu işin içində olub: "Tarixə baxdıqda, xüsusilə də son 40 ilə nəzər salsaq bütün dünyada qarşıdurma yaratmaq istəyən qüvvələr əsasən iki istiqamətdə bunu həyata keçirirlər. Azərbaycanda elə bir dini sistem yaradılıb ki, yəhudi, xristian, müsəlman hər biri birgə fəaliyyət göstərə bilirlər. Bu Azərbaycançılıq ideologiyasından irəli gəlir. Buradan da multikulturalizm doğur. Azərbaycançılıq odur ki, Azərbaycanda yaşayan bütün xalqlar rahat yaşaya bilirlər. Azərbaycan dövlətinin tərəqqisi uğrunda fəaliyyət göstərirlər. Ümumi məqsədimiz Azərbaycan dövlətinin möhkəmlənməsidir. Ulu Öndər Heydər Əliyevin başlatdığı kursu cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Cənab Prezident bir çox çağırışlar edir. Lakin məmurlar bunu bəzən aydın dərk edib, həyata keçirə bilmir.

Multikulturalizmi hərə bir cür başa düşür. Avropa ölkələrində bəziləri ümumiyyətlə multikulturalizmi heç yaxına buraxmırlar. Azərbaycanda müxtəlif mədəniyyətlər, etnik tərkiblər var. Bu xalqlar çox yaxşı, mehriban şəraitdə, ahəng yaradaraq yaşayırlar. Multikultural mühitin yaradılması çox yaxşı bir şeydir. Ölkəmizdə də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi var. Eyni zamanda müxtəlif kitablar da dərc olunub".

***Səbinə Hüseynli***

# Ermənistanda amerikan biomüharibə laboratoriyaları: region üçün qorxunc təhlükə

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



***Bundan əvvəl "Ritm of Eurasia" koronavirusla bağlı qalmaqalın episentrinə çevrilən Qazaxıstandakı Amerika bioloji laboratoriyası haqqında yazmışdı. Analoji mərkəzlər Avrasiya İqtisadi İttifaqının və KTMT-nin digər ölkəsində- Ermənistanda da fəaliyyət göstərir. Və onlar heç də daha az qalmaqallı deyillər.***




## Bioloji işğal

Hazırda Ermənistanda Bioloji Təhlükənin Azaldılması Proqramının (BTRP) bir hissəsi kimi ABŞ ordusunun maliyyəsi ilə tikilmiş və ya təkmilləşdirilmiş 12 biolaboratoriya şəbəkəsi var ki, bu da öz növbəsində ABŞ-ın Birgə İştirakçı Bioloji Proqramının (CBEP) bir hissəsidir. Onlardan 3-ü Yerevanda yerləşir: Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzində, Dövlət Qida Təhlükəsizliyi Xidmətində və Nork İnfeksion Klinik Xəstəxanasında. İcevan, Gümrü, Martuni, Sisiyn, Artaşat və Vanadzor və s.-də taun əleyhinə stansiyalar əsasında regional laboratoriyalar fəaliyyət göstərir.

Digər ölkələrdə olduğu kimi, onlar yalnız nominal olaraq Ermənistana məxsusdurlar, lakin əslində onlara ABŞ-ın səfirliyinin hərbi attaşesinin əməkdaşı, mayor E.Larsenin bu ölkədə nəzarət etdiyi ABŞ-ın Təhlükəsizlik Təhdidlərinin Azaldılması Agentliyi (DTRA) nəzarət edir. Bu obyektlərin Amerika mənsubiyyəti podratçılar siyahısı ilə təsdiqlənir. Bu, xüsusən Ermənistanda laboratoriyalar və informasiya şəbəkəsi yaratmaq üçün DTRA-dan 50 milyon dollar alan "CH2M Hill"dir. Bu şirkət, öz növbəsində, Black & Veatch-in vasitəçiliyi ilə, uzun illər bioloji silahlar hazırlayan daha 2 subpodratçı cəlb edib.

Bunlardan birincisi Battelle Memorial İnstitutudur ki, o, xüsusilə CIA ilə birgə "Clear Vision" əməliyyatını həyata keçirib, orada Sovet dövründən qalma kiçik çaplı qarayara bombasının partlayışından sonra virusun yayılma prinsiplərini öyrənmək üçün rekonstruksiya edib sınaqdan keçirib. 2006-cı ildən institut Daxili Təhlükəsizlik Departamenti (DHS) ilə müqavilə əsasında Merilend ştatının Fort Detrik şəhərindəki Milli Biomüdafiə və Qarşı Tədbirlər Mərkəzində (NBACC) bioloji laboratoriya işlədir. O, məsələn, toz püskürtmə texnologiyasının qiymətləndirilməsində, aerozol toksin təhlükəsinin qiymətləndirilməsində və mümkün Kateqoriya B bioterror agenti olan Burkholderia pseudomallei bakteriyalarının qiymətləndirilməsində iştirak edir. İkinci podratçı ABŞ Ordusunun qarayara xəstəliyinin tədqiqat partnyoru olan Cənubi Araşdırma İnstitutudur.

"Tam sağlamlıq" ictimai hərəkatları koalisiyasının lideri, bioloji təhlükəsizlik sahəsində beynəlxalq ekspert Q.Qriqoryanın qeyd etdiyi kimi, Ermənistanın milli bioloji təhlükəsizlik sistemi bölgədə ABŞ-ın bioloji kəşfiyyat sisteminin elementinə çevrilib. Hələ 90-cı illərin ortalarından Amerika hərbi laboratoriyalar şəbəkəsi ölkədə açılmamışdan əvvəl ABŞ Ermənistanın epidemioloji məlumat bazalarına tam nəzarəti ələ keçirib. Q.Qriqoryanın sözlərinə görə, ölkədə ABŞ-ın Atlantada yerləşən Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzləri (CDC) tərəfindən hazırlanmış və ÜST tərəfindən bütün ölkələrdə epidemioloji məlumatların toplanması və emalı üçün tövsiyə edilən Epi info informasiya sistemi tətbiq edilib. Və 2011-ci ildə amerikalılar dövlət sanitar-epidemioloji və baytarlıq-sanitariya nəzarəti xidmətlərini elektron inteqrasiya olunmuş xəstəliklərə nəzarət sistemini (EIDSS) və elektron patogenlərə nəzarət sistemini (PACS) tətbiq etməyə məcbur etdilər.

Xüsusi təhlükəli infeksion agentlərin məlumat bazaları və ştamları Ermənistana məxsus olsa da, laboratoriyaların əsl sahibləri onlarla bağlı öz mülahizələri ilə sərəncam verirlər.

2015-ci ildə vəba çöplərinin 2 genomu Ermənistandan Uolter Rid (WRAIR) Hərbi Tədqiqat İnstitutunun nümayəndəsinin- ABŞ və eyni zamanda Gürcüstan mərkəzinin əməkdaşı Luqar M. Nikoliç ixtiyarına keçib. 2016-cı ildə Ermənistanın "Nork" əsas yoluxucu xəstəliklər xəstəxanasının 600 xəstəsinin tibbi sənədləri Fort Detrikdən olan Yoluxucu Xəstəliklər üzrə Hərbi Tibbi Tədqiqat İnstitutunun nümayəndəsi tərəfindən yoxlanılıb. Onları ABŞ ordusunun 1977-ci il hesabatına görə 1952-ci ildə 5 dəfə, 1954-cü ildə 2 dəfə və 1955-ci ildə 4 dəfə bioloji silah kimi sınaqdan keçirilmiş brusellyoz maraqlandırırdı.

2014-cü ildə amerikalıların "Ermənistanda tulyaremiya epidemiyalarının təhlili, 1996-2013" araşdırmasını dərc etdirdiyi tulyaremiyaya gəldikdə, Pentaqon ondan biosilah kimi istifadə variantlarını ciddi şəkildə nəzərdən keçirdi. ABŞ Ordusunun 1981-ci ildəki məxfilikdən çıxarılan hesabatında deyilir ki, hərbi ekspertlər böyük bir düşmən şəhərinə mümkün bioloji hücum üçün 3 ssenarinin səmərəliliyini müqayisə ediblər: yerdən və havadan yoluxmuş sarı qızdırma ağcaqanadlarının eyni vaxtda 16 hücumu və tulyaremiya spreyi ilə aerozol hücumu. 625.000 insanın öldürülməsi-hər ölüm Pentaqona 29 sentə başa gələcək. Əgər qurbanların sayı 10 dəfə az olsaydı, o zaman hər bir həyatın qiyməti 2,86 dollar olardı.

## Heyvanlar üzərində təcrübələr

Olduqca ciddi şəkildə güman etmək olar ki, araşdırmalarla yanaşı, amerikalı "poqonlu virusoloqlar" Ermənistanda və qonşu ölkələrdə çöl sınaqları keçirirlər. Black&Veatch-in 2012-ci ildə bildirdiyi kimi, DTRA proqramı çərçivəsində o, Ermənistan Səhiyyə Nazirliyinin 3 laboratoriyasında bir neçə saat ərzində qarayara xəstəliyinin yayılmasını təsdiq edə bilən yoluxucu xəstəliklərin diaqnostikası avadanlığı quraşdırıb. Və elə bir "təsadüf" baş verdi ki, bir neçə həftə ərzində Qeqarkunik (keçmiş Basarkeçar-E.B.) bölgəsində Ermənistan tarixində görünməmiş bu xəstəlik yayıldı və 52 nəfər xəstələndi. Avadanlıq sınaqdan keçirilib və işləyir.

Amerika bioloji laboratoriyalarının Ermənistanda peyda olmasından sonra Asiya pələng ağcaqanadları da tropik qızdırma, dang qızdırması, Çikunqunya və Zika virusu,- hansı ki, yeni doğulmuşlarda genetik dəyişikliklərə səbəb olurlar- yarandı. Onların üzərində eksperimentlər Gürcüstanın Luqar şəhərinin mərkəzində aparılıb. Və bu ölkədə bu ağcaqanadlar, Amerika CRL-də işləyərkən Qazaxıstan mağaralarında yolla amerikalı professor Q.Smitin koronavirusa yoluxmuş yarasaları kimi uçurdu. Bununla belə, Ermənistan koronavirus qalmaqalından da məhrum olmayıb. Ermənistan Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktika Milli Mərkəzinin (NCDC) 14 əməkdaşı koronavirusa yoluxub. ABŞ-da istehsal edilən ən yüksək mühafizə və təhlükəsizlik sistemi də kömək etmədi.

Digər misal, Gürcüstandan Ermənistana gələn Afrika donuz taunu. Xəstəliyin süni mənşəyinə dair birbaşa sübut yoxdur. Gürcüstan hakimiyyətinin məlumatına görə, patogen ölkəyə ya Gürcüstana gələn xarici gəmilərin çirkab sularından daxil olub, ya da ətlə birlikdə gətirilib. İnfeksiya Ermənistana gəlib və 25 min baş donuzun tələf olmasına gətirib çıxarıb, milli donuz sənayesinə böyük ziyan vurub.

Yoluxucu agentin özü mutasiyaya uğrayıb və 2017-ci ildə Ermənistan Kənd Təsərrüfatı Nazirliyinin və DTRA-nın himayəsi altında Amerika laboratoriyalarında tədqiq edilib. Bu araşdırmanı aparanlar arasında Battelle Memorial İnstitutu tərəfindən idarə olunan






**_Bundan əlavə, ötən ilin sonunda məlum olduğu kimi, Ermənistanda yerləşən Amerika laboratoriyaları Ermənistan Respublikası Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutu (IMB) ilə birlikdə NATO, Pentaqon və AB tərəfindən maliyyələşdirilən erməni genotipi haqda məlumat son dərəcə narahatedicidir_**

Amerika Sakit Okean Şimal-Qərb Milli Laboratoriyasının nümayəndəsi də var. Amerikalı alimlər belə qənaətə gəliblər ki, ASF virusu insanlara yoluxa bilər və dang qızdırmasının törədicisi ola bilər və ya insanın immun sisteminə təsir edə bilər. DTRA Afrika donuz taunu potensial biosilah hesab edir.

Bundan əlavə, ötən ilin sonunda məlum olduğu kimi, Ermənistanda yerləşən Amerika laboratoriyaları Ermənistan Respublikası Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutu (IMB) ilə birlikdə NATO, Pentaqon və AB tərəfindən maliyyələşdirilən erməni genotipi haqda məlumat son dərəcə narahatedicidir. Pentaqondan olan "bioloqlar" yerli patogenlər və virusların bütün ştammlarını əldə etdilər ki, bu da bioloji silahların hazırlanmasına imkan verir.

BMT-nin Bioloji Silahlar Komissiyasının keçmiş üzvü İ.Nikulinin sözlərinə görə, "əslində etnik silahlar artıq yaradılıb. Ən azı, quş qripi monqoloidləri, SARS virusu avropalıları, Ebola, Marburqa- afrikalıları "vurur". Bu laboratoriyalar Rusiya Federasiyasının sərhədlərində yaranandan bəri müxtəlif epidemiyaların baş verməsi onların olmadığı dövrlə müqayisədə onlarla dəfə çoxdur".

Təəccüblü deyil ki, ötən gün "Erməni qartalları- Vahid Ermənistan" partiyası baş nazir N.Paşinyandan 2 ay ərzində ölkədə ABŞ-ın nəzarətində olan bütün bioloji laboratoriyaları ləğv etməyi tələb edib.

## Od olmayan yerdən tüstü çıxmaz

Bioloji silahların istehsalı üçün biolaboratoriyaların istifadəsi ilə bağlı şübhələr heç də əsassız deyil. Birləşmiş Ştatlar Bioloji Silahların Yayılmaması haqqında 1972-ci il Konvensiyasından uzaqlaşdı və 2001-ci ildən ona qarşılıqlı nəzarətə imkan verən əlavə protokolun qəbulunu əngəllədi. Amerikalılar viruslar da daxil olmaqla biomüxtəlifliyə və ya insan sağlamlığına zərərli təsir göstərə bilən canlı, biotexnoloji cəhətdən dəyişdirilmiş orqanizmlərin təhlükəsiz köçürülməsi, emalı və istifadəsi sahəsində adekvat mühafizə səviyyəsini təmin etmək məqsədi daşıyan Biotəhlükəsizlik üzrə Kartagena Protokoluna da məhəl qoymadılar..

ABŞ-ın milli qanunvericiliyində bioloji silahlar sahəsində işlərin aparılmasına imkan verən qaydalar da var. Xüsusilə, 1925-ci il tarixli "Müharibədə boğucu, zəhərli və ya digər qazların və bakterioloji vasitələrin istifadəsinin qadağan edilməsi haqqında" Cenevrə Protokolunun Birləşmiş Ştatlar tərəfindən ratifikasiyası bir sıra qeyd-şərtlərlə müşayiət olundu, onlardan biri kimyəvi və toksin silahlarından istifadəyə imkan verir. Öz növbəsində, ABŞ-ın "Amerikanın terrorizmlə mübarizədə birləşməsi haqqında" federal qanununa uyğun olaraq, bioloji silahların yaradılması sahəsində tədqiqatlara ABŞ hökumətinin icazəsi ilə icazə verilir və belə tədqiqatların iştirakçılarına belə bir silahın hazırlanmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmur.

1998-ci ildə Vaşinqton "Yeni Əsr üçün ABŞ-ın Milli Təhlükəsizlik Strategiyası"nı qəbul etdi və onun həyata keçirilməsi üçün beynəlxalq hüquqdan yan keçərək, kütləvi qırğın silahlarının yayılması sahəsində əməkdaşlığa dair çərçivə sazişlərinin imzalanmasına diqqət yetirildi. Belə bir müqavilə 2000-ci ildə Ermənistanla imzalanıb və 2002-ci ildə qüvvəyə minib. Bioloji təhlükənin azaldılması üzrə tədbirlər haqqında saziş 2010-cu ilin sentyabrında imzalanıb, lakin İrəvanın ABŞ Müdafiə Departamentinin Təhdidlərin Azaldılması Agentliyinin (DTRA) "Bioloji təhlükələrin azaldılması proqramı"nın fəaliyyətində iştirakı 2008-2009-cu illərdə başlayıb.

American Newspeak-in "Orwell" üslubu çoxdan məlumdur. Əgər "demokratiyanın qurulması" suveren dövlətləri raketlərlə silməkdən ibarətdirsə, niyə bioloji silahların istehsalını "bioloji təhlükənin azaldılması" və "kütləvi qırğın silahlarının yayılmaması" hesab etməyək?

RF Silahlı Qüvvələrinin Radiasiya, Kimyəvi və Bioloji Müdafiə Qoşunlarının rəisi, general-mayor İ.Kirillovun 4 oktyabr 2018-ci il tarixində Rusiya Müdafiə Nazirliyində biosilahlara dair brifinq zamanı dediyi kimi, "ABŞ çox güman ki, beynəlxalq müqavilələrdən yan keçərək, qoruyucu və ya digər dinc tədqiqatların həyata keçirilməsi adı altında hərbi bioloji potensialın yaradılmasını davam etdirir".

Laboratoriyaların yerləşdiyi yerlər təbii ki, təsadüfi seçilməyib: bunlar Rusiya, Çin və İran sərhədlərində yerləşərək, onların əhalisi üçün bioloji və epidemiya təhlükəsi yaradır.

## Kiminləsən Ermənistan?

ABŞ-ın 12 hərbi obyektinin yerləşdiyi Ermənistanın Aİİ və KTMT-nin üzvü olması vəziyyətə xüsusi kəskinlik verir. Rusiya müttəfiqinə (?!) ABŞ-ın hərbi obyektlərinin onun ərazisində artan bioloji təhlükə ilə bağlı fəaliyyəti ilə bağlı narahatlığını dəfələrlə bildirib.

2018-ci ilin dekabrında Rusiyanın xarici işlər naziri S.Lavrov bu bioloji laboratoriyalarda əcnəbi hərbçilərin olmamasına zəmanət verəcək sənədin hazırlanması üçün Ermənistanla danışıqlar apardığını açıqlamışdı. 2019-cu ilin noyabrında ölkələr arasında ABŞ-ın maliyyələşdirdiyi bioloji laboratoriyalarda əcnəbi hərbçilərin olmamasını, habelə bu cür müəssisələrə rusiyalı mütəxəssislərin qəbulunu nəzərdə tutan memorandum imzalanmalı idi. Buna baxmayaraq, işlər hələ də var: sazişin bağlanması təxirə salınıb və ABŞ ordusu Vaşinqtonun yaratdığı bioloji kəşfiyyat və təxribat strukturlarına rəhbərlik etməkdə davam edir.

Rusiyalı mütəxəssislərin bu obyektlərə girişi açıq-aşkar profanasiya kimi görünür. 2017-ci ildə laboratoriyalara baş çəkən Saratovdan olan mütəxəssislərə virusların və kimyəvi reaktorların saxlandığı qutulara yaxınlaşmağa icazə verilməyib. Lakin bu, Ermənistanın Baş Naziri Aparatı yanında İnformasiya Yoxlama Mərkəzinin "laboratoriyaların Ermənistanın mülkiyyətidir və heç bir hərbi əhəmiyyəti yoxdur" deməyə davam etməsinə mane olmur. Halbuki, baş nazirin tapşırığı ilə rusiyalı mütəxəssislər laboratoriyalara baş çəkmək və özləri görmək hüququ verilib.

Vaşinqtona gəlincə, o, mövcudluğunu təkcə laboratoriyalarla məhdudlaşdırmır. Ölkənin ümumi təhlükəsizlik sisteminə daxil olan müxtəlif dövlət strukturları ilə əlaqələr qurulur. Bu, xüsusən də Milli Elmlər Akademiyasının yuxarıda adı çəkilən Molekulyar Biologiya İnstitutudur. Bu institutun alimləri Vişeqrad Fondunun (Aİ), ABŞ Dövlət Departamentinin, Beynəlxalq Elm və Texnologiya Mərkəzinin (Aİ və ABŞ-ın rəhbərlik etdiyi NATO-nun milli və beynəlxalq qrantlarının dəstəyi ilə tədqiqatlar aparırlar.

Erməni təşkilatı kimi qeydiyyatdan keçmiş Aqrobiznes və Kənd İnkişaf Mərkəzi (KART) də fəaliyyət göstərir. Əslində, o, Amerika Bazarına Giriş Proqramının (MAP) davamçısıdır və DTRA-dan maliyyə alır. Xüsusilə, 2017-ci ildə o, "elmi və texniki xidmətlər" göstərmək, yəni ölkənin dövlət idarələrində DTRA-nın maraqlarını lobbi etmək üçün 1 milyon dollar alıb. Agentliyin sənədlərində qeyd edildiyi kimi, "CARD Ermənistanın əsas nazirləri, həmin nazirliklərdəki aparat başçıları ilə görüşmək və DTRA-nın həyata keçirdiyi tədbirlərdə uğurlu iştirakını təmin etmək üçün kritik ehtiyacını sübut edib".

Şərhə ehtiyac yoxdur. Onu əlavə etmək qalır ki, Rusiyadan da hərbi müdafiə alan KTMT və Avrasiya İttifaqının üzvü dövlətin öz ərazisində Moskva, Pekin və Tehrana qarşı niyyətlərini və öz aqressivliyini gizlətməyən qüvvələrin bioloji müharibə strukturlarının olmasının hansı nəticələrə gətirib çıxaracağını düşünsə yaxşı olardı. Bioloji silahlardan istifadənin təhlükəsini tam şəkildə koronavirus pandemiyası göstərdi və müttəfiqlərin "çox vektorlu" olması ilə bağlı arxayınlığa yer qoymadı.

**Mənbə- vpoanalytics.com**
**Müəllif -Viktoriya Popova**

***Tərcümə - Elçin Bayramlı***

***Niyə uşaq sahibi olmaq istəyirik? Ümumiyyətlə, hər mədəniyyətdə uşağın yeri ayrıdır. Bəzilərinə görə bu, tanrının hədiyyəsi və təbiətin qanunudur. Bəziləri əsl ana və ata olmaq arzusu ilə, yəni o məsuliyyəti öz üzərinə götürüb o hissi yaşamaq, digərləri evlilik bağlarını möhkəmləndirmək, nəslini davam etdirmək üçün övlad sahibi olmaq istəyir. Bir qrup da var ki, nə qədər bunu arzulasa da, cəhd etsə də, valideyn ola bilmir. Bəs, bunun səbəbi nədir? Yaşadığımız mühitin, ekologiyanın, istifadə etdiyimiz qidaların, psixoloji və tibbi durumumuzun bu məsələyə hansı təsiri var?***





# Övladı olmayanlarda ciddi psixoloji amillər var

ARAŞDIRMA

Əsasən, cütlər gələcək planlarının fərqli olduğunu anladıqda daha tez ayrılırlar. Ancaq bəzi cütlüklər o qədər də şanslı deyillər və ailə qurduqdan bir neçə il keçməsinə baxmayaraq, uşaq istəyib-istəmədiyindən heç vaxt danışmırlar.

SİA məsələ ilə bağlı araşdırma apararaq həkim, psixoloq, sosioloq, ekspert və hüquqşünasın fikirlərini öyrənib.



**Cərrah, mama-ginekoloq Ləman Əliyeva:** ”Analarımızın, nənələrimizin dediyinə görə, keçmiş zamanda sonsuzluq problemi daha az olub. Ekoloji mühit və qidalar indiki dövrdə bu problemin artması səbəblərindəndir. Çünki əvvəlki kimi təmiz təbiətə və sağlam qidalara sahib deyilik. Bu da orqanizmin zəifləməsinə, hormonların pozulmasına gətirib çıxarır.

Fiziki və psixi vəziyyətlərdə hormonların əhəmiyyəti böyükdür. Nəticədə, hormonal pozuntu olanda hamiləlik alınmır. Bu, eyni zamanda, kişilərdə sperma faizinin aşağı olması və ya heç olmamasına səbəb olur.

Yumurtalıqda, ya da uşaqlıqda olan törəmələr, kistalar qadınlarda sonsuzluq problemi yaradır. Yumurtalıqların polikistoz sindromu son zamanlarda rast gəlinən sonsuzluq səbəblərindən biridir”.

**Psixoloq Fidan Nizamova:** ”İstənilən məsələni fikrində çox tutduqca beyin və orqanizm üçün yükə çevrilir. Mentalitetimizdən dolayı gənc ailələrə övlad sahibi olmaq ilə bağlı təzyiqlər edirlər. Hər gün, hər saniyə cütlüklər, xüsusən də xanımlar bunu düşünür. Çox zamanda bu səbəbdən orqanizm bu stressə qarşı əks müdafiə etməyə başlıyır.

Burada çox ciddi psixoloji amillər var. Qısa olaraq desək, mexanizm belə çalışır: bir hadisə sizin üçün nə qədər önəmli olarsa, fikrinizi ağlınızı nə qədər zəbt edib sizi stressə salarsa, orqanizm sizi bir o qədər də o hadisədən qorumağa başlayacaq.

Təbii ki, övlad sahibi ola bilməməyin bir çox səbəbləri var. Fizioloji, ekoloji, bioloji, psixoloji və s. səbəblər də buraya daxildir.

Əgər bütün göstəricilər normaldırsa, amma övlad sahibi ola bilmirsinizsə, valideyn olmaq arzusunu arzu olaraq edin və buraxın. Onun üzərində dayanıb o fikirini beyniniz üçün bir yükə, probleme çevirməyin. Bu stress ailədaxili münasibətlərə də təsir edir”.



**Sağlam qida təbliğatçısı Asim Vəliyev:** Dövrümüz ailələrin ən çox həkim müraciətlərində ilk sıranı qısırlıq tutmağa başlayıb. Hər yeni ailə həyatı qurmuş fərdlərdən ən az 3-də 1-i uşaq dünyaya gətirməkdə problemlərlə qarşılaşır. Süni mayalanma mərkəzləri demək olar günbəgün artmaqda davam edir. Hər gün TV-lər vasitəsilə reklam olunur. Amma bu da çarə deyil. Çünki sadəymiş kimi göstərilsə də, tətbiq edilən müalicə qadınları fizioloji baxımdan sarsa bilər. Ən əsası isə süni mayalanma metodu ilə doğulan uşaqları gələcəkdə hansı xəstəliklərin gözlədini bilmirik. Görəsən, onların artma qabiliyyətləri necə olacaq?

*Ardı Səh. 11*

# Övladı olmayanlarda ciddi psixoloji amillər var





**Əvvəli-Səh-10**

Problemin iki əsas səbəbi var. Birincisi post müasir dünyanın, ya da İvan İlliçin deyimi ilə "sənayeləşmə"nin ortaya çıxardığı sosial problemlərdir. İkincisi isə qlobal güc mərkəzlərinin insanlığa qarşı qurduğu siyasi oyunlar, ya da kimyəvi tələlərdir.

İnsanların uşaq dünyaya gətirməmə səbəbləri çox müxtəlifdir: Şəhərləşmə, qadınların kariyer qurma arzusu ilə uşaq sahibi olmaq istəməməsi, yüksək rifah istəyinin artması, gəlir səviyyəsinin yüksəlməsi, məcburi ehtiyac qəbul edilən istehlak vasitələrinin çoxalması, çox uşaq sahibi olmağa yaxşı baxılmaması, sağlamlığın pozulması və s. Keysəriyyə doğuma məcbur edilən qadınların daha sonrakı hamiləliklərinin riskli olduğuna dair yayılmış məlumatlar, şüuraltı təlqin və abort da əsas amillərdən bəziləridir. Təbii ki, işin ən önəmli tərəfi sağlamlıqdır. Sürətlə azalan və pozulan sperma, istənsə də uşaq dünyaya gətirməyi çətinləşdirir.

Qısırlığın artmasına səbəbləri belə sıralamaq olar: Dərmanlar, peyvəndlər, qida qatqı maddələri, pestisidlər, hibrit və digər metodlarla toxumların qısırlaşdırılması, fast-food məhsulları, əkinçilikdə və heyvandarlıqda hormonların istifadəsi, qidaların emalında tətbiq edilən yeni işləmlər, geni dəyişdirilmiş orqanizmlər, piylənmə, kortizon istifadəsi, kosmetika məhsulları, qadın pedləri, uşaq bezləri, şampunlar, doğum nəzarət dərmanları, elektronik alətlər, cib telefonları, daşına bilən kompyuterlər, radiasiya, uzun müddət masada oturmaq, dar şalvarlar və dar alt çamaşırlar geyinmək, yüksək temperaturlu məkanlarda çalışmaq, ətraf mühit kirliliyi, siqaret, alkoqol, narkotiklər, müasir yaşam şəklindən qaynaqlanan stress.

Qidalanma-qısırlıq əlaqəsi ilə bağlı 2010-cu il 20 aprеldə keçirilən "Alternativ İqlim Zirvəsi"ndə danışan Bolivya lideri Morales fikirləri çox düşündürücüdür: "Toyuqlara gəldikdə... Toyuqlar qadın hormonuyla doldurur. Toyuq yeyən kişilər problem yaşayır. Kişilər, toyuq yeməyin! Həm kişiliyinizi, həm saçlarınızı itirərsiniz..." Qidaların təsirləri ilə əlaqəli ən maraqlı etiraflardan biri də Amerikalı "Epicyte" adlı şirkətin müdirinin 2001-ci il sentyabr ayında keçirdiyi mətbuat yığıncağında söylədiyi fikirdir: "Hamiləliyə mane olan qarğıdalı istehsal etdik. Qarğıdalılarımız sperma öldürücü antitellərlə doludur." Bu gün dünyada bütün marketlərdə satılan sənaye qidaların ən az 90%-də qarğıdalı yağı, qarğıdalı unu, qarğıdalı şəkəri, qarğıdalı nişastası və ya qarğıdalıdan əldə edilən yüzlərlə qatqı maddəsi var. Üstəlik dünyadakı qarğıdalıların 80%-dən çoxu geni dəyişdirilmiş, yəni GMO-lu qarğıdalıdır. Geriyə qalanlar isə qısırlaşdırılmış, yəni hibritdir. Hamısı herbisid və pestisid ehtiva edir

Yuxarıda saladıqlarımızı xülasə edərək əldə edəcəyimiz nəticə ondan ibarətdir ki, insanların qısırlaşmasına və uşaq sahibi olmalarına təsir edən ən əsas faktorlardan biri qidalarımızdır".

**Hüquqşünas Fariz Əkbərov:** "Boşanmaların əsas səbəblərindən birinin sonsuzluq olduğu bildirilir. Sonsuzluğun yaranmasına isə



bir çox səbəb göstərilir. Amma ən çox ekoloji təsirlər- havanın, suyun, ətraf mühitin çirkliliyi və süni qidalar əsas gətirilir.

Düzgün qidalanmamaq səbəbi ilə vücud maddələr mübadiləsini yavaşıdır. Yağlı yeməklər, trans yağlardan istifadə də immunitetə mənfi təsir göstərir. Köklük xəstəliyi spermanın keyfiyyətini öldürür. Sonsuzluğun müalicəsində qida seçimi əsas məsələlərdəndir".

Tez həll olunan karbohidratlar, yəni şirniyyatlar, süni qidalar, yarımfabrikatlar da hormonal pozğunluqlar yaradır. Bu qidalar piylənməyə, insulinə rezistentliyə gətirib çıxarır.

Xüsusilə də kənd təsərrüfatında istifadə edilən dərmanlar, fabrik və zavod tullantılarının yaratdığı ekoloji çirklilik zamanla nəsilartırmadakı performansa təsir edir.

Əlverişli mühitin olmaması, iş stressləri, beyinin çox yüklənməsi də burada müəyyən mənada rol oynayır".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "İnsanların davranışı həyat tərzi onların nəsil artırma qabiliyyətinə çox təsir edir. Ona görə Quran'i-Kərimdə bu məsələlərə xüsusilə ciddi diqqət verilir, insanların cinsi münasibətləri ilə də bağlı tövsiyələr verilir və başqa elm sahələrində də kifayət qədər məsləhətlər var.



Sosioloji tərəfi əsas ondan ibarətdir ki, guya Avropa mədəniyyətinin təsiri altında oğlanlarımız və qızlarımız get-gedə macəraçılığı sevəndə, yəni, hələ nigaha girməmişdən əvvəl istər oğlanlar, istər qızlar bir qədər bu məsələdə özlərini sərbəst aparanda, tarixi adətənənəmizə, əxlaqi normalara, qadağalara əhəmiyyət verməyəndə bir qədər də özlərini müasir hesab edəndə, necə gəldi həyat tərzi sürəndə görüşdükləri insanlardan müxtəlif xəstəliklər keçir. Bu hökm deyil ki, lap elə qorxunc xəstəliklər olsun. Bu heç olmaya da bilər. Bu onların özünə və yaxud doğulan övladlarına da təsir edir. Bunlar isə öz növbəsində insanlara elə təsir edir ki, onlarda nəsil artırma imkanları xeyli azalır.

İkinci tərəfdən gənclərimizin geyimlərinə diqqət verməməsi, yəni, guya müasirlik xatirinə beli açıq paltarlar geyinirlər. Hər kəs özünü müasir hesab edir ki, corabsız ayaqqabı geyinirəm. Bütün bunlar sonsuzluğa səbəb ola bilər. Ona görə də bu istiqamətdə də gənclərin maariflənməsinə çox böyük ehtiyac var.

Ekoloji mühit, qidalar da təsir edir. Sovet dövründə Sumqayıt gənclərinin 26 faizində bu problem olub. Halbuki başqa rayonlarda bu faiz çox aşağı idi. Sumqayıtda isə o seçilirdi.

Qidalar da çox mühüm təsir edirdi. Azərbaycanda qida mədəniyyətinə böyük ehtiyac var. İnsanlarımızın əksəriyyəti tez ölür, müxtəlif xəstəliklər tapır. Bu, sağlamlıq və qida mədəniyyətinin olmaması ilə bağlıdır".

***Ayşən Vəli***





# 31 Mart soyqırımı: "İnsanların baş nahiyəsindən balta ilə vurublar"



*Abil Ağasəfov*
*YAP Qəbələ rayon təşkilatının sədri*

***"Böyük Ermənistan" xülyasının reallaşdırma planının tərkib hissəsi. Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya***

və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, insanlar işgəncələrə məruz qalmışdır. Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmişdir;

- Qətlə yetirilənlərin sayı on minlərlə ölçülür. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar;

- 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən erməni cəlladları uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirilmiş, on minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış milliyyətinə mənsub insanları qılıncdan, süngüdən keçirərək diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıtmışlar;

-Mart soyqırımında "Daşnaksutyun" partiyasının iştirakı danılmazdır. 1918-ci il martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğınına başlanılmışdır. Dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda "Daşnaksutyun" partiyasının 4 minlik silahlı dəstəsi iştirak etmişdir. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, uşaqdan böyüyədək hər kəsi qətlə yetirmişlər;

- Şamaxı hadisələri. Şamaxı hadisələri ilə əlaqədar ilkin məlumat mənbələrinin böyük hissəsi məhv olduğu üçün və tədqiqat işləri hələ də davam etdirildiyi səbəbindən erməni cinayətlərinin tam mənzərəsi formalaşmayıb. Ekspertlərin rəyinə əsasən Şamaxının 72 kəndində ermənilər tərəfindən 7 min nəfərin, o cümlədən 1653 qadın və 965 uşağın öldürdüyü bildirilir. Bu faciənin tədqiqi məqsədilə 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Ötən əsrin 90-cı illərindən etibarən yerli tədqiqatçılar da bir sıra araşdırmalar aparıblar. Onların tədqiqatı nəticəsində (yüz nəfərə yaxın şahiddən toplanan xatirə və məlumatlar) müəyyən edilib ki, erməni cinayətkarları Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfər qətlə yetirilib. Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub;

- Quba soyqırımının fəsadları. Quba qırğınları zamanı şəhərdə öldürülənlərin təxmini sayının 2900-dək, Quba qəzası üzrə ümumilikdə isə 4000 nəfərdən artıq olduğu qeyd olunur. Bu soyqırımı nəticəsində Quba qəzasının 122 kəndi tamamilə dağıdılmış, 2750-dən çox ev tamamilə yandırılmışdır.





Tədqiqat zamanı o da məlum oldu ki, ermənilər dinc əhaliyə divan tutan zaman odlu silahdan istifadə etməyiblər. Aşkarlanan kəllə və digər insan sümüklərində güllə yeri yoxdur. Onların hamısı küt alətlərlə öldürülüb. Araşdırmalar göstərir ki, qətlə yetirilmiş insanların baş nahiyəsindən balta ilə vurublar. Sonra xəncərdən istifadə etməklə başı bədəndən ayırıblar. Bəzi kəllə sümüklərində mismarlar aşkarlanıb. İnsanların başına mismar vurmaqla öldürülməsi bu vəhşiliyin hüdudlarının olmadığını göstərir. Xüsusi qəddarlıqla öldürülən insanlar su arxlarına və quyulara doldurulub, üzəri torpaqla örtülüb;

- "Azərbaycanlıların Soyqırımı Günü". Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədi ilə 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalamışdır. Sözügedən Fərmanla martın 31-i "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Fərmanda deyilirdi: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir". Həmin Fərmanın icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı Ulu Öndər Heydər Əliyev 30 mart 1999-cu ildə tədbirlər planı təsdiq etmişdir;




- Ermənilərin xalqımıza qarşı törətdiyi 31 Mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya yayılması işi Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə başlanılmışdır. Adıçəkilən Fərmanın imzalanması faktı məsələ ilə bağlı aparılan tədqiqatlara, habelə həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Sözügedən Fərmandan sonra həmin tarixin öyrənilməsi istiqamətində mühüm işlər görülmüş, çoxlu əsərlər yazılmış və əcnəbi dillərə tərcümə olunmuşdur. Ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir;

- Quba şəhərində soyqırımı memorial kompleksi. 2007-ci ilin aprelində Quba stadionunun təmiri ilə əlaqədar aparılan qazıntı işləri nəticəsində kütləvi məzarlıq aşkarlandı. Məzarlıqdan tapılan insanların cəsədləri üzərində tibbi ekspertiza, antropoloji araşdırmalar aparıldı. Məzarlıqda 500-dək insan kəlləsi vardı. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara aid idi. Bu adamların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımı qurbanları olduğu sübuta yetirildi Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 dekabr 2009-cu il tarixli Sərəncamı ilə Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılmasına qərar vermişdir. Memorial kompleks 2012-2013-cü illərdə Quba şəhərində Qudyalçayın sol sahilində inşa edilmiş və 2013-cü il sentyabrın 18-də açılmışdır. Kompleksin ümumi sahəsi 3,5 hektardır və 5 hissədən ibarətdir (https://soyqirim.az/). Prezident İlham Əliyev Soyqırımı memorial kompleksinin açılışı zamanı demişdir: "1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir... Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir";

- Erməni faşizminin ifşasına və həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına xidmət edən təşəbbüs. Erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Prezident İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalamışdır. Sərəncamla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsinin təmin edilməsi tapşırılmış, həmçinin Milli Məclisə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilmişdir.

# İstanbul görüşü - Rusiya və Ukraynadan Türkiyə xarici diplomatiyasına jest




*Rusiya ordusunun Kiyev və Çerniqov vilayətlərindən çıxmasını qarşılıqlı etimadın və inamın artması nəticəsində baş verdiyini bəyan etdi*

***Rusiya ordusu Ukrayna cəbhəsinin Kiyev cə Çerniqov istiqamətindəki hərbi fəallığını kardinal şəkildə məhdudlaşdıracaq. SİA Meduza Informasiya resursuna istinadən xəbər verir ki, Rusiya Federasiyasının Müdafiə Nazirliyi İstanbulda baş tutan Rusiya-Ukrayna danışıqlarının başa çatmasından sonra bu barədə bəyan edib. Rusiyanın hərbi idarəsinin nümayəndəsi vurğulayıb ki, sözügedən qərar "qarşılıqlı etimadın və inamın artması nəticəsində" verilib.***





Xatırladaq ki, bundan əvvəl Ukraynanın Baş Qərargahı Rusiya silahlı qüvvələrinin Kiyev və Çerniqov vilayətlərindən hissə-hissə çıxardığını bəyan etmişdi.

### Rusiya və Ukrayna Türkiyənin vasitəçi kimi barışıq yaratmaq cəhdlərini yüksək qiymətləndirirlər

Əgər məlumat hər iki tərəfdən təsdiq olunursa, sözügedən razılaşmanın əldə olunması Ankaranın Moskva və Kiyev arasındakı vasitəçiliyinin önəm kəsb etdiyini isbatlayır. Eyni zamanda, Rusiya və Ukrayna Türkiyənin vasitəçi kimi barışıq yaratmaq cəhdlərini yüksək qiymətləndirməklə bu ölkənin xarici diplomatiya idarəsinə, bütövlükdə isə ölkə rəhbərliyinə, Prezident Rəcəb Tayyib Ərdoğana tərəf müsbət jest kimi nümayiş etdirirlər. Hər halda, reallıq da bunu göstərir.

Bu arada, başa çatan danışıqların nəticələrinə görə, Ukrayna nümayəndə heyətinin üzvü David Araxamiyanın da fikirləri diqqət çəkir. BBC-nin məlumatına görə, Araxamiya müharibənin başa çatması üçün Rusiyaya təhlükəsizlik zəmanəti ilə bağlı fikirlərini çatdırıb.

### Ukraynanın təhlükəsizlik qarantları kimi hansı ölkələr çıxış edə bilərlər?

Belə ki, razılaşma beynəlxalq səviyyədə qəbul edilməli və bütün təhlükəsizlik qarantları tərəfindən imzalanmalıdır. Ukrayna tərəfi təhlükəsizlik qarantları kimi Türkiyəni, İsraili, Çini, ABŞ-ı, Kanadanı, İtaliyanı və Polşanı təklif edib.

Bəzi ölkələr isə artıq öz razılıqlarını veriblər. Razılaşmalara əsasən, əgər Ukraynaya qarşı müharibə baş verərsə, qarant ölkələr üç gün ərzində məşvərət aparmalı, daha sonra isə Ukraynaya köməklərini təqdim etməlidirlər. "Bu təklif qəbul olunmayıb, biz onu Rusiya tərəfinə təqdim edəcəyik. Onlardan cavab gözləyəcəyik", deyə Araxamiya bildirib.

***Rövşən RƏSULOV***

**ANALİTİK+AKTUAL**



RƏFİQƏ

# 31 MART SOYQIRIMI REALLIĞI - UNUTMA Kİ, UNUDULMAYASAN

***31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ... 31 mart - Azərbaycanda erməni vəhşiləri tərəfindən qanlı soyqırımın unudulmaz tarixlərindən biridir. Bu tarix həmişə iyrənc maskaları ilə dünyaya "biz günahkar deyilik, günah türklərdədir" deyə bağıran daşnak sözçülərinin son iki yüz ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu yazıldığı unudulmayan, nə qədər qəribə səslənsə də əlamətdar tarixdir. Bir də bu o tarixdir ki, erməni vəhşiliyini, erməni zülmünü və erməni qaniçənliyini bir daha üzə çıxarır və xatırladır ki, ey azərbaycanlılar, ulu babaları, nənələri qanında boğulmuş millət, unutma ki, unudulmayasan!***

Məhz elə buna görə də, unudulmayan Xocalı kimi bir faciəni artıq dünya soyqırımı kimi tanımaqdadır. Dünya faktlar, sübutlar, sənədlər, canlı şahidlər hesabına Xocalını soyqırımı kimi tanımağa məcbur oldu və bu istiqamətdə dövlətin qətiyyətli iş aparmağının sayəsində, Xocalı dedikdə SOYQIRIMI sözü öz məntiqi yerini tutmağa başlayıb. Belə olan halda, bu reallığı 31 mart tarixinə kökləməyin zamanı da çatıb. Ancaq təəssüf doğuran da odur ki, hansı ki, yalanlar üzərində qurulan "24 aprel" adlı olmayan bir tarixi, hadisəni böyük türk dünyasının adına yazmaq, yazdırmaq riyakar, işğalçı ermənilərə müyəssər olub. Bu, o ermənilərdir ki, dahilərin bu mənfur ermənilər haqqında dediklərinə nəzər salmaq kifayətdir.

Tarixçi A.Anninski. XIX əsrin sonu: "Ermənilər həmişə azsaylı vəhşi tayfa olub". Erməni şairi Yeqişe Çarentsu: "Bizdə ikiüzlülük hələ ana bətnində yaranır". Rus diplomatı, şair A.S.Qriboyedov. 1819: "Bu ermənilər nə qədər murdar millətdirlər".

Qriboyedovun çara məktubundan: "Zati-aliləri, ermənilərin mərkəzi rus torpaqlarında məskunlaşmasına icazə verməyin. Onlar elə bir qəbilədəndirlər ki, bir neçə onilliklər yaşadıqdan sonra bütün dünyaya buranın ataları və ulu babalarının torpağı olduğunu qışqırmağa başlayacaqlar". Böyük Əmir Teymur (Teymurləng): "Tarix mənə iki şeyi bağışlamayacaq: 1) Etnos kimi erməniləri məhv etmək istəməyimi, 2) Bunu etməməyimi. Düzdür, ermənilər arasında da yaxşıları var, amma ümumilikdə, mənfur xalqdır". Rus şairi A.S.Puşkin: "Sən qorxaq, sən qul, sən erməni-sən". Alman filosofu Karl Marks: "Ermənilər yaşamaq üçün qadınlarını digər xalqların yatağına salan ilk millətdir".

Bax, budur, erməni məfhumları. Və işğalçı ermənilər bilməlidirlər ki, Azərbaycan Xocalını, 31 mart hadisələrini dünyaya tanıtdıqca, "24 aprel" stereotipini, ağ yalanını əzəcək. Çünki həqiqət hər zaman yalan üzərində qələbə çalıb. Söz yox ki, "24 aprel" yalanını əzmək üçün bu millət Xocalı və 31 mart soyqırımlarını tanıtmaqla yanaşı, Qarabağdan da keçməlidir. Bu da reallıqdır ki, bu millət həmişə tarixi torpaqlarını azad etməklə öz hüququnu müdafiə etmək əzmində olub və bu əzmi isə xalqa dövlət verib, dövlət yaradıb! Bu gün hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan 31 mart soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır. Qəhrəman ordumuz Ali Baş Komandanımızın əmri ilə 2020-ci il sentyabrın 27-də başladılan "Dəmir yumruq" əməliyyatı ilə 44 gün ərzində düşməni darmadağın edərək doğma Qarabağımızı 28 illik əsarətdən xilas etdi.

Artıq iki ildir ki, xalqımız bəşər tarixində ən qanlı cinayətlərdən biri olan 31 MART soyqırımı günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır. Ancaq bu tarixi - 31 Mart soyqırımını, erməni vəhşiliyini, erməni zülmünü və erməni qaniçənliyini unutmayaq. Çünki 31 Mart soyqırımında ulu babaları, nənələri qanında boğulmuş millət bu zülmü unutmamalıdır ki, unudulmayasan! Çünki cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin və ordumuzun ətrafında "Dəmir yumruq" kimi birləşən güclü, mərd Azərbaycan xalqı gücünün, qüdrətinin nələrə qadir olduğunu düşmənə və bütün dünyaya bir daha nümayiş etdirdi. Artıq bütöv Azərbaycan var. Artıq hər birimiz Böyük Qayıdışa doğru gedirik. Əbədi torpaqlarımız düşmən işğalından azad olunmaqla, soyqırım qubanlarının da ruhu şad olmuşdur. Düşmən isə bütün müvafiq qanunlar qarşısında törətdiyi cinayətlərinə görə cavab verəcək, mütləq cavab verəcək. Buna heç kimin şübhəsi olmasın.

# Azərbaycan Ordusu Qarabağda öz sözünü deyib və deyəcək!

## *Rusiyadakı ermənipərəst anti-Azərbaycan isterikasına qarşı isə müvafiq cavablar verilməlidir!*



***Qarabağda erməni separatçılarının təxribatları və həmin təxribatlara qarşı Rusiya sülhməramlı kontingentinin (RSK) görməzlikdən gəlməsi əvvəl-axır Azərbaycanın səbrini daşıracaqdı və gözlənildiyi kimi, belə də oldu. 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatındakı 4-cü əsas bəndin hələ də yerinə yetirilməməsi, yəni qanunsuz erməni silahlı birləşmələrinin Azərbaycanın suveren ərazilərindən çıxarılmaması, üstəlik, müxtəlif vaxtlarda silahlı təxribatların törədilməsi artıq "bıçağın sümüyə dirənməsi" amili ilə nəticəsini tapdı.***

Əbəs deyil ki, Azərbaycanın Xarici İşlər Nazirliyi bəyanat yaydı və orada bildirildi ki, məhz Ermənistan post münaqişə mərhələsində Azərbaycana qarşı açıq ərazi iddialarını davam etdirir və bunu, o cümlədən XİN səviyyəsində Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı verdiyi hər bir açıqlamasında gündəmə gətirir.

"Məhz Ermənistan postmünaqişə mərhələsində Azərbaycana qarşı açıq ərazi iddialarını davam etdirir və bunu, o cümlədən XİN səviyyəsində Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı verdiyi hər bir açıqlamasında gündəmə gətirir. Məhz Ermənistan üçtərəfli bəyanatın 4-cü bəndinə zidd olaraq erməni silahlı qüvvələrinin qalıqlarını hələ də bölgədən çıxarmır. Ermənistan bəyanatın 6-cı maddəsini pozaraq Laçın dəhlizi vasitəsilə hərbçilərin bölgəyə göndərilməsini davam etdirir. Bu fakt beynəlxalq media tərəfindən də öz təsdiqini tapıb", deyə bəyanatda vurğulanır".

Beləliklə, yaranan təhlükələrin aradan qaldırılması üçün Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman əsgər və zabitləri Ağdam ərazisini atəş altında qoyan, aparılan tikinti-quruculuq işlərinə ciddi maneələr yaradan erməni separatçılarını Fərrux dağından və Daşbaşı yüksəkliyindən qovub-çıxardı. Söz yox ki, bu proses davam edəcək və Qarabağın yerdə qalan ərazilərində də qalmaqda davam edən erməni silahlıları həmin ərazilərdən rədd ediləcəklər.

### Rusiyanın Müdafiə Nazirliyi və RSK belə davam edilməyəcəyini bilməlidir!

Lakin təəssüfedici məqamlardan biri də budur ki, XİN-lə yanaşı, Azərbaycanın Müdafiə Nazirliyi də bəyanatlar səsləndirdi və məhz 4-cü bəndin icra edilməsindən yayınan, yaxud qəsdən həmin şərtləri icra etməyən RSK-ya dəfələrlə xəbərdarlıqlarını edərək qanunsuz silahlılara qarşı tədbir görülməsini tələb etdi. Lakin bu tələb və çağırışlar da, sözün əsl mənasında, qulaqardına vurulurdu. Üstəlik, Ordumuz əməli fəaliyyətə keçən kimi RSK-nın Rusiyanın Müdafiə Nazirliyinə təqdim etdiyi bülletenində milli toponimlərimiz qəsdən erməniləşdirilir, olmayan "Dağlıq Qarabağ" adlı ərazi vahidinin adı çəkilir, Azərbaycanın Qarabağ regionu açıq-aşkar təhriflərə məruz qalır, eləcə də guya Azərbaycan tərəfinin üçtərəfli bəyanatın şərtlərini "pozması" barədə yalan, saxta məlumatlar verilirdi. Təəssüf ki, eyni hal hazırda da davam edir və belə də davam edə bilməz!

Rusiyanın telekanalizasiyalarında Delyagin isterikası - Azərbaycana qarşı "nüvə silahı işlətmək" (?!)

Və bütün bunların fonunda bu gün Rusiyanın info-kanalizasiyalarında da sırf erməni xislətinə söykənən, bu xislətdən əsla fərqlənməyən, açıq şovinizmə söykənən anti-Azərbaycan isterikası davam etməkdədir. Xüsusilə, 44 günlük müharibə zamanı Rusiyadan Azərbaycan əleyhinə fəaliyyət göstərən ictimai şəxslər, jurnalistlər və deputatlar yenidən öz boşboğazlıqlarını nümayiş etdirməyə başlayıblar.

Belə ki, bu dəfə Rusiya Dövlət Dumasının İqtisadi siyasət Komitəsinin sədr müavini Mixail Delyagin Azərbaycanı təhdid edib. O, Rusiyanın 1-ci dövlət kanalındakı çıxışı zamanı ölkəmizi aqressiyada günahlandırıb və buna qarşı sərt addımlar atılmağı zəruri hesab edib. Deputat hətta terror aktına işarə edib. Azərbaycan neft sənayesinə hərbi zərbə endirilmə ehtimalını dilə gətirib. Əlbəttə, belə şəxslərin "çənə döymələrinin" arxasında erməni maraqlarının dayanması kimsəyə sirr deyil və söz yox ki, bu gün Rusiyada fəaliyyət göstərən erməni iş adamları bu kimi deputatların ağızlarına sümük atmaqla nə isə əldə edəcəklərini düşünürlər. Ancaq məsələnin digər tərəfi budur ki, hələ mürəkkəbi qurumamış Azərbaycan-Rusiya müttəfiqlik bəyannaməsinin mövcud olduğu halda belə bir klounadanın nümayişi etimad və etibarlıq prinsipinə köklü zərbələr vurmağa başlayır.

Söz yox ki, Delyaginin məlum çıxışına qarşı müvafiq cavablar veriləcək və mümkündür ki, Kremldən, hətta Dumadan da ona hər hansı bir qulaqburması verilsin, amma bütün bunların yenidən təkrarlanmaması üçün ciddi addımların atılması zərurəti yaranmaqdadır.

Bu gün Rusiyadakı siyasilər bilməlidirlər ki, anti-Azərbaycan isterikası regionda yaranmış yeni geosiyasi şərtlərlə üst-üstə düşmür. Əgər Rusiyanın bəlli dairələri Azərbaycanı tək görürlərsə, burada da yanılırlar - Azərbaycanın bu gün Rusiya ilə normal münasibətlər qurmağa çalışan, bir sıra hallarda isə dəstəklərini göstərən Türkiyə kimi güclü müttəfiqi var. Moskvadakı Delyagin xarakterli sözbaz isteriklər bu reallığı dərk etməlidirlər. Və bu gün həmin Delyagin həddini aşmaqla Azərbaycana "nüvə zərbəsi" endirmək təklifini də səsləndirirsə, demək, onun həqiqətən də ağlı-başı yerində deyil.

### Azərbaycanın rus icmasının rəhbəri, deputat Zabelin Delyaginə cavab verməlidir!

Yeri gəlmişkən, Rusiyadakı isterik deputatların Azərbaycana qarşı sərsəm fikir bildirmələrinə qarşı Azərbaycanda fəaliyyət göstərən rus icmasının rəhbəri, deputat Mixail Yuryeviç Zabelin tərəfindən kiçik cavab olsa belə verilmədi (?!). Axı həmin Delyagin məhz Zabelinin yaşadığı ölkəyə "nüvə zərbəsi endirməyi" tələb edib, məgər bu sərsəm fikrə qarşı sərt münasibətli cavabın verilməsinin vaxtı, zamanı deyilmi?

Beləliklə, bu gün istər Rusiyada, istərsə də digər hər hansı nöqtələrdə kimlərinsə nə demələrindən asılı olmayaraq Azərbaycan öz qəti addımlarını atmağa davam edir və əgər Qarabağda sülhün bərqərar olması üçün müvafiq öhdəliklər götürmüş hərbi-siyasi dairələr, misal üçün RSK işinin öhdəsindən gəlməyi bacarmırsa, Azərbaycan özü qısa zamanda və kifayət qədər təmiz şəkildə suveren ərazilərini qanunsuz erməni silahlılarından təmizləyəcək. Buna istər deputat Delyagin, istər aparıcılar Skobeyeva və Solovyov, istərsə də digər şübhə ilə yanaşa bilərlər, amma Azərbaycan xalqının qətiyyən şübhəsi yoxdur!

***Rövşən RƏSULOV***

FORS BAXIŞ+AKTUAL



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Ukraynanın "Milli Şura"ya ehtiyacımı var?

***Ukraynada davam edən ağır döyüşlər və yaranan ağır humanitar situasiya əlbəttə ki, Azərbaycan dövlətini də etinasız buraxa bilməzdi və buna sübut olaraq ölkəmizin ardıcıl olaraq Ukraynaya humanitar yardımlarını göndərir, Ukrayna xalqının acınacaqlı vəziyyətdən çıxması üçün mümkün olan dəstəklərini nümayiş etdirir. Lakin bugünlərdə özünü "Milli Şura"nın "lideri" hesab edən AXCP sədri Əli Kərimlinin də "mən də varam" iddiası fonunda "Ukraynaya dəstək" mitinqi keçirmək qərarı kənardan onun qeyri-ciddiliyini daha çox açığa çıxarmış olur.***

Misal üçün, sirr deyil ki, artıq ölü quruma çevrilmiş "Milli Şura" adlı "layihənin" əsası illər əvvəl Rusiyadakı qaranlıq dairələr tərəfindən, həm də bir sıra öhdəliklər irəli sürmək şərti ilə qoyulmuşdu. Həmin vaxtlar AXCP sədri Əli Kərimlinin Rusiyanın qaranlıq dairələrinə casusluq etməsindən tutmuş digər əməllərinə qədər bütün oyunbazlıqları ifşa edildi və o da əbəs deyil ki, "Milli Şura"da yer almış Müsavat partiyası və onun sabiq başqanı İsa Qəmbər həmin "qurumun" məhz antimilli fəaliyyətini əsas gətirməklə oranı tərk etdi, qapısını çöldən bağladı. Onun ardınca isə digər bir neçə kiçik partiyalar getdilər.

Beləliklə, "Milli Şura"nın sükanının Əli Kərimlinin əlində olması və ətrafında başda Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu və s. olmaqla degeneratlar tayfasını toplaması nəticə etibarı ilə "qurumun" vəziyyətinin nə yerdə olduğunu bütün çılpaqlığı ilə nümayiş etdirməkdədir.

Lakin daha bir diqqət çəkən məqam budur ki, indi də Ukraynadakı hadisələr fonunda mitinq keçirmək arzusuna düşən və özlərinə xal toplamağa cəhd edən siyasi buqələmunlar fəsiləsinin nümayəndələri özünüifşa prosedurlarını davam etdirməkdədirlər. Məsələn, sual oluna bilər ki, Ukrayna ərazisində bir aydan artıqdır ki, müharibə gedir və nəyə görə indi yadlarına mitinq keçirmək düşdü?

Yaxud, bugünlərdə Ukraynanın dövlət başçısı Vladimir Zelenski Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək minnətdarlığını ifadə etdi və Ukrayna dövlətinin və xalqının Azərbaycanın mövqeyindən razılığını bildirdi. Bu fakt qarşısında özlərinin cılızlıqlarını daha da üzə çıxaran "Milli Şura" təmsilçiləri öz təbirlərincə nəyi "sübuta" yetirmək istəyirlər? Ukrayna məsələsində guya ölkə "müxalifətinin" ölkə rəhbərliyindən daha çox yanmalarınımı? Bu, heç də səmimiyyət nümayişi deyil, sadəcə və sadəcə uğursuz klounadadır və başqa heç nə!

Fakt budur ki, sözügedən siyasi buqələmunlar fəsiləsi - "Milli Şura"-AXCP-degenerat "birliyi" ölkədə qarışıqlıq yaratmaq niyyəti güdür, üstəlik, bu addımları ilə Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirmək istəyirlər. Və haqlı olaraq daha bir sualı da ünvanlamaq olar: əgər Ukrayna Azərbaycanın mövqeyindən rəsmi şəkildə razı olduğunu bəyan edirsə, xəyanətkar, antimilli qruplaşma üzvləri hesab edilən "Milli Şura" niyə anidən belə addım atmaq qərarına gəldi? Bu sualın da cavabı bəsitdir - onlar ölkəmizdəki həssas dönəmdə, xüsusilə, Qarabağda baş verən son olaylar fonunda xaos, anarxiya, qarşıdurmalar yaratmağa cəhdlər göstərirlər və onlara əlbəttə ki, sümük atan dairələr, məsələn, Qərbdəki erməni lobbisi ilə əlbir olan ağaları belə tapşırıqları verib. Lakin onlar bu tapşırıqlarının da öhdəsindən gələ bilmək gücündə deyillər. Yəni ölü qurum elə ölü qurum olaraq qalmaqdadır, qalır üfunət qoxusu verməmələri üçün birdəfəlik məzarlığa qolaylanmaları...

# Ermənistan tələdə və təhlükəsizliyi təhdid altında








**TƏHLİL**

***Rusiyanın Ukraynada uğursuzluqlarla qarşılaşması, müvəffəqiyyət qazana bilməməsi bu ölkənin müttəfiqlərinin hər istiqamətdə tamamilə məğlub olması anlamına gəlir. Təsadüfi deyil ki, rusların bu uğursuzluqlarından sonra erməni cəmiyyətində onlara qarşı meyillər müşahidə olunur. Rusiyanın uğursuzluğunun Ermənistan üçün hansı nəticələr vəd etdiyini ermənilər yaxşı başa düşürlər və narahatlıqları da anlaşılandır. Çünki, bu, yəni Rusiyanın məğlubiyyəti, yaxud müvəffəqiyyət, qələbə qazana bilməməsi ilə Ermənistanın hədəfə çevriləcəyi ermənilər üçün çox narahatedici, təhlükəli mesajdır və birbaşa Ermənistana aiddir.***

Ermənistandakı Rusiya bazasından ayrı-ayrı bölmələri Rusiya Federasiyasının Ukraynaya qarşı müharibəyə köçürmək planı da sıradan bir məsələ hesab olunmur. Elə buna görə də ermənilərin kürkünə birə düşüb və bununla Ermənistanın təhlükəsizliyinin real təhlükə altında olması bəlli olur. Sosial şəbəkələrin işğalçı ölkəyə məxsus seqmentində, ələlxüsus "Facebook" sosial şəbəkəsində bu barədə erməni narahatlıqları özünü biruzə verir. Ermənilər hesab edirlər ki, Rusiya bazasından ayrı-ayrı bölmələrin köçürülməsi Ermənistan üçün hətta tələ də ola bilər. Daha doğrusu bəzi erməni siyasətçiləri bunun məhz Putinin tələsi olduğu qənaətindədirlər.

Ermənistanda yerləşən Rusiya bazasından ayrı-ayrı bölmələrin köçürülməsi barədə Ukrayna Silahlı Qüvvələri Baş Qərargahının operativ məlumatında da bildirilib və bundan ermənilərin hədsiz dərəcədə təşvişə düşməsi gözlənilən idi. "Döyüş əməliyyatlarında iştirak edən ayrı-ayrı hissələrin döyüş qabiliyyətini bərpa etmək cəhdlərini davam etdirən Rusiya Federasiyasının hərbi rəhbərliyi Ermənistandakı 102-ci Rusiya hərbi bazasından bəzi hissələrin Ukrayna ərazisinə köçürülməsini planlaşdırır", deyə Ukrayna Silahlı Qüvvələri Baş Qərargahının operativ məlumatında qeyd olunan məlumatdan sonra Rusiya tərəfindən heç bir təkzib də olmadısa, deməli məsələ çox ciddidir. Deməli, ermənilər narahat olmaqda haqlıdırlar. Ona görə ki, bu onlar üçün faciə deməkdir. Çünki bu mesaj çox şeyi deyir, çox şeydən xəbər verir. Məsələn, Rusiyanın uğursuzluğu ilə bağlı Kreml etiraf etməyə tələsməsə də bunun əksini iddia belə etməməsi müəyyən məqamlara aydınlıq gətirmək üçün kifayətdir. Kremlin Kiyevi və Ukraynanın bütün böyük şəhərlərini üç-beş günə ələ keçirmək üçün dəqiq planı olduğu halda bunun baş verməməsi, yalnız Xersonu götürə bilmələri vəziyyətin nə yerdə olduğunu açıq-aşkar ortaya qoyur və rus ordusu barədə mifləri darmadağın edir. Belə olan halda isə, il yarım bundan əvvəl erməni ordusu mifi darmadağın edilən, sonra rus ordusu mifinə söykənən ermənilərin başına sanki daş düşmüş olur. Üstəlik, hər zaman rus qoşunlarına, rus əsgərinə sığınıb səsini çıxaran erməninin "səsi" Ermənistanda olan Rusiya bazasından ayrı-ayrı bölmələrin köçürülməsi ilə boğulur, hətta tamamilə kəsilir.

Mariupol məhv edilsə də, Xarkovda, İrpendə, Buçada çox şey dağıdılsa da bu Rusiyanın qələbəsi sayıla bilməz və yalnız rusların həmləsi hesab oluna bilər. Əlbəttə ki, Putinin ümid etdiyi heç də bu olmayıb və nəticələrin olmaması Rusiya liderini narahat edir. Bu arada diqqətə çatdıraq ki, Ukrayna hərbçiləri Rusiyanın bir neçə hərbi karvanını və hava hədəflərini belə məhv edə bilib. Bu məlumatlar sosial şəbəkələrdə yayılan əsassız informasiyalar, yaxud söz-söhbət deyil, bu barədə Ukrayna Silahlı Qüvvələri Baş Qərargahının xülasəsində məlumat verilir. Məlumatda qeyd olunur ki, Ukrayna hərbçiləri Ukraynanın Nikolayev və Sumı vilayətlərində Rusiyaya məxsus texnikanın bir neçə kolonunu məhv ediblər və hazırda rusların itkiləri dəqiqləşdirilir. Həmçinin bildirilir ki, Kiyev vilayətində son günlər Ukrayna müdafiə qüvvələri tərəfindən 30-dan çox yaşayış məntəqəsi azad edilib, bəzi ərazilərdə rus qoşunları Ukrayna paytaxtından on kilometrlərlə geri çəkilib. Bir sözlə, rəsmi məlumatlar ən azından rusların uğursuzluqları barədə fikir formalaşdırır.

Artıq bütün dünyada açıq şəkildə deyilir ki, Ukraynada Rusiya Federasiyasının hərbi məğlubiyyəti günün reallığı kimi qəbul edilir. Bütün dünya o qənaətdədir ki, Rusiya bu müharibədə uduzub və indi məsələ yalnız Putinin bunu etiraf etməsi ilə yekunlaşmalıdır. Məsələ burasındadır ki, görünür, Rusiya prezidenti də uğursuzluqlarını etiraf etmək niyyətində deyil. Əslində, bir neçə günə Ukraynanı işğal edəcəyi, ələ keçirəcəyi, ukraynalıları təslim edəcəyi qənaətində olan Rusiya lideri yanıldığını anlasa da bunu etiraf edə bilmir. Elə müharibənin, qarşıdurmanın uzanmasına da səbəb olaraq bu hal diqqətdən yayınmır və dünya ictimaiyyəti hesab edir ki, Putinin etirafı ilə döyüş sona çata bilər.

Təkcə sosial şəbəkənin erməni seqmenti deyil, hətta Ermənistan mətbuatı belə yazır ki, hadisələrin bu şəkildə gedişi Ermənistan üçün çox təhlükəlidir. İşğalçı ökədə anlayırlar ki, Rusiyanın Ukraynada uğursuz olması onun müttəfiqlərinin məğlub olmasına, başda da Ermənistanın məhvinə zəmin yaradır. Ən azından bu vəziyyət Ermənistanın təhlükəsizliyini təhdid altında qoyduğu qənaətindədirlər artıq erənilər. İndi ermənilər qorxurlar ki, bəzi məsələlər barədə onlardan mütləq tam şəkildə sorğu-sual olunacaq. Hətta bunun baş verməyəcəyi illüziyasına aldanmamağı da ermənilər bir-birilərinə tövsiyyə edirlər. Səbəb də onu hesab edirlər ki, dünya nəhayət ki, Ukraynanın müttəfiqləri və əleyhdarları olaraq dövlətləri cəmi ikicə dənə qütbə bölüb və Ermənistan da bütün dünyanın, ən azından Qərbin rəqibi olaraq qəbul edilib.

Ermənilər bəhanə etməyə çalışırlar ki, Rusiya ilə eyni müstəvidə olmağa onlar məcbur ediliblər. Məsələ burasındadır ki, onların bəhanələrinə artıq qulaq asan belə olmayacaq və bu bəhanələri heç kim nə eşitməyəcək, nə də bəhanələrini qəbul etməyəcək. Bəli, Ermənistan mətbuatı yazır ki, Türkiyə və Azərbaycan bütün dünyanın gözündə ədalətin, haqqın tərəfində olan ölkə, işğalçının tərəfində olmayan ölkə kimi bir daha nüfuz qazandı. Hətta işğalçı ölkə ictimaiyyətində Türkiyə və Azərbaycanın bundan istifadə edəcəyi qorxusu da yaşanır. Yenə də ermənilər qorxuya düşüblər ki, rəsmi Ankara və Bakı bu vəziyyətdən istifadə edə bilər və onların bu qorxuları da məhz işğalçı ölkənin mətbuat səhifələrində öz əksini tapır. Ermənistan mətbuatı yazır ki, Şuşada Azərbaycan ilə BMT arasında tərəfdaşlığın 30 illiyinə həsr olunmuş tədbir Bakı mətbuatını artıq çoxdan sevindirib. Hətta, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin fikirləri də ermənilərdə qıcıq doğurub. Ermənistana məxsus armenianreprt.am saytı Azərbaycan Prezidentinin köməkçisinin belə bir fikirlər ifadə etdiyini yazır: "Biz BMT-nin Azərbaycanda akkreditə olunmuş nümayəndələri ilə Şuşaya səfər etmək üçün "Xankəndi" adlı təyyarə ilə Füzuli hava limanına uçuruq. Azərbaycanın BMT-yə üzv olmasının 30 illiyi Şuşada bu qurumun institutları ilə birgə qeyd olunacaq. BMT-nin bayrağı işğaldan azad edilmiş Şuşada dalğalanacaq!". Bəli, ermənilərin bu sözlərdən xoflandıqları da açıq-aşkar duyulur, amma narahatlıqları da, əməlləri və tutduqları çirkin yolun fonunda anlaşılandır. Anlaşılan odur ki, ermənilər bu zamana qədər yalnız işğalçılıq siyasəti yürütdüklərini özləri hamıdan yaxşı bilirlər və dərk edirlər ki, regionda sülhü təmin edən, istər iqtisadi, istərsə də hərhansı sahədə inkişafa zəmin yaradan Azərbaycan bütün dünyanın gözündə elə onların özlərindən fərqli olaraq sülhsevər, sülhün təminatçısı, eləcə də ədalətin tərəfində olan ölkə olaraq görünür. Dərk edirlər ki, Qərb də arıq onların hiyləgərliklərinin, bəd əməllərinin və niyyətlərinin fərqindədir. Hətta bunu bildiklərini etiraf etməkdən çəkinənlər belə indi etiraf etmək məcburiyyətində qaldıqlarını ermənilər anladıqları üçün yuxularını qarışdırıblar. Qərbin köməyinə bundan sonra ümid edə bilməyəcəklərini anlayan ermənilər 44 günlük müharibəni bir daha xatırlamalı olurlar və ona görə də hesab edilər ki, Ermənistanın təhlükəsizliyi bundan belə təhdid altındadır.

Üstəlik, Rusiyanın tezliklə döyüşə hazır bütün ordusunu itirəcəyini düşünən ermənilər tamamilə başlarını itirir, bundan çox böyük qorxu keçirirlər. İndi ermənir hesab edirlər ki, Rusiyanın məğlubiyyətlə üz-üzə olması Vaşinqtonda, Tokioda, Ankarada, ələlxüsus Kiyevdə sevinclə qarşılanır və bu zaman Ermənistanın taleyi, ələlxüsus təhlükəsizliyi sual altında qalır. Ermənistan cəmiyyəti hesab edir ki, Putin özünü tələyə salıb və bu tələyə özü ilə bərabər bütün erməniləri də sürükləyib. Ermənilərin hətta özlərinin belə fikrincə, Putin Rusiyanı bütün dünyaya düşmən etməklə, həm də onun müttəfiqi, hər zaman əli altında olan Ermənistanı, rusların marioneti sayılan erməniləri də bütün dünyanın qarşısında hədəf edib. Artıq Ermənistanda hadisələrin daha acınacaqlı və daha gərgin olacağı, bir-birinin ardınca məğlubiyyətlə, hətta məhv olmaq, yox olmaq təhlükəsi ilə qarşılaşacaqlarına inananlar kifayət qədərdir və təhlükəsizliklərinin təhdid altında olduğu qənaətində olanlar mövcudluqlarının da sual altında olacağı fikrində haqlıdırlar.

***İnam Hacıyev***

# "Barselona": Messi gündəmimizdə deyil...

*"Barselona"nın prezidenti Joan Laporta PSJ-nin hücumçusu Lionel Messinin Kataloniya klubuna mümkün qayıdışı ilə bağlı danışıb. Qol.az "RAC1"ə istinadən xəbər verir ki, o deyib: "Lionel dünyanın ən yaxşı futbolçusudur. Amma mən Messi və ya onun agentlərindən "Barselona"ya qayıtmağın mümkünlüyü ilə bağlı heç bir məlumat almamışam. Bu məsələ gündəmimizdə deyil. İstərdim ki, yeni "Kamp Nou"nun açılışı zamanı Leo bizimlə olsun. "Kamp Nou" həmişə onun evi olacaq. Messinin bizimlə olmasını istərdim. Amma lazım olanı etdik, özümüzü maliyyə cəhətdən pis vəziyyətdə qoya bilməzdik".*




Qeyd edək ki, Messi 2021-ci ilin yayında "Barselona" ilə yeni müqavilə imzalaya bilmədiyi üçün azad agent kimi PSJ-yə keçib.

34 yaşlı oyunçu bu mövsüm bütün turnirlərdə 26 oyuna çıxıb, 7 qol vurub və 11 qolun ötürməsini verib.

# Sarımsaq qaraciyərdəki zəhərli maddələri təmizləyir

*Qaraciyər bədəndə süzgəc rolunu oynayan əsas təmizləyici orqandır, lakin onun imkanları hədsiz deyil. Fastfud yeməkləri, eləcə də tərkibində doymuş yağlar, artırılmış şəkər və sintetik inqrediyentlər əlavəsi olan emal edilmiş ərzaqlar bu "filtri" çox asanlıqla yükləyə bilir ki, nəticədə də qaraciyər öz vəzifəsinin öhdəsindən çətinliklə gəlir. Zəhərli maddələr qaraciyərə dolduqda yorğunluq, ürəkbulanma, köp və qarın işləməsində problemlər əmələ gəlir, ağır hallarda isə qaraciyər çatışmazlığı inkişaf edir.*

Bəzi ərzaqlar qaraciyəri zəhərli maddələrdən təmizləyir, onun düzgün fəaliyyətini təmin edir. Bu ərzaqlardan biri də sarımsaqdır. Bəs sarımsağı qaraciyərin effektli təmizləyicisinə çevirən nədir?

Bu barədə "MedikForum" saytında maraqlı məqalə çap olunub. Yazıda qeyd olunur ki, ədviyyəli tərəvəz zəhərləri birbaşa çıxarmağa qadir deyil. Bunun əvəzində sarımsaq qlütationun - zərərli sərbəst radikalların əmələ gətirdiyi oksidləşdirici stresdən müdafiə edən antioksidantın təbii yolla yaranma prosesini artırmağa kömək edir. Bu, qaraciyərin fəaliyyətini yaxşılaşdırır, onu iltihaba, xəstəliklərə daha az meyilli edir. Mütəxəssislər təsdiqləyirlər ki, yaş ötdükcə orqanizmdə qlütationun əmələ gəlməsi azalır. Onun miqdarını sadə effektli üsulla artırmaqdan ötrü rasiona sarımsaq əlavə etmək lazımdır.

Bundan əlavə, bu tərəvəzin tərkibində selen var. Qlütationa bənzəyən bu mikroelement antioksidant kimi təsir göstərir, qaraciyərin zəhərli maddələrdən müdafiəsini yaxşılaşdırır.

Sarımsağı necə yemək məsləhətdir? Bu tərəvəzi çiy yemək daha faydalıdır. Həm də yeməmişdən əvvəl sarımsağı doğramaq və ya əzmək lazımdır - bu, onun tərkibindəki faydalı birləşmələrin üzə çıxmasına kömək edir.



# Taksi nişanından istifadə olunmalıdır?

*"Taksi nişanlarının qoyulub və ya qoyulmaması elə bir ciddi problem yaratmasa da, bəzi hallarda xüsusilə də, xanımlar bu vəziyyətdən narazı qalırlar". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Elməddin Muradlı bildirib.*




Onun sözlərinə görə, xanımların fikrinə əsasən, avtomobildə taksi nişanı olmadığı zaman bu hal həmin ərazinin sakinlərinin diqqətinə səbəb olur: "Sürücülərin çoxu məsuliyyətsizlik edərək, fərqlənmə nişanından istifadə etməyib vergi ödəməkdən boyun qaçırırlar. Bəziləri isə özünə yaraşdırmır, utanır və buna görə də taksi nişanından istifadə etmir. Bunun üçün bizim qanunvericilikdə bütün həll yolları öz əksini tapıb. Qaydalara görə, taksi avtomobillərinin üzərində şahmat işarəsi mütləq olmalı və xidmət növü olaraq fərqlənmə nişanı qoyulmalıdır. Təəssüflər olsun ki, bizdə avtomobillərin üzərinə şirkətlərin adı yazılır. Bunların çoxu reklam xarakteri daşısa da, mən bu halla razılaşmıram. Ona görə ki, taksi nişanlarından mütləq istifadə olunmalıdır".

***Banuçiçək Hüseynli***

# Azərbaycanda pensiyaçıların sayı 1 milyonu ötüb

*2021-ci ildə ölkə üzrə əmək pensiyaçılarının ümumi sayı 1 milyon 197 min nəfər təşkil edib, onlardan 707,2 min nəfəri və ya 59,1 faizi yaşa görə, 345,6 min nəfəri və ya 28,9 faizi əlilliyə görə, 144,2 min nəfəri və ya 12 faizi ailə başçısını itirməyə görə pensiya alıb. SİA-nın məlumatına görə, bu barədə Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında icmal hesabatda deyilir.*

Əmək pensiyalarının orta aylıq məbləği 2021-ci ilin 1 yanvar tarixinə olan 302,24 manatdan 2022-ci ilin 1 yanvar tarixina ilkin hesablamalara görə 331 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 331,4 manatdan 358 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 260,9 manatdan 290,8 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 263 manatdan 290,2 manata yüksəlib.



## BAŞSAĞLIĞI

Məmmədhəsən Məmmədov, Vüqar, Elçin, Elvin Məmmədov qardaşları Rəşad, Məmmədov İbrahim, Məzahir, İlqar Əhmədov qardaşlarına ataları

Əhmədov Əlibabanın

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin.

## ELAN

Azərbaycan Universitetinin Sosial iş fakültəsinin 3-cü kurs tələbəsi Əsgərli Zeynəb Maşallah qızının adına verilmiş 192813 B saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220